

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## General Timoşenko: Heydər Əliyev mənə dedi: "Nelson Mandela birinci yerə qoyulmalı idi"



10

# "TEKNOFEST" - Dünyanı heyrətləndirən birlik



2

SƏS
№ 074 (6757)
2 may 2023-cü il.
Qiyməti 60 qəpik

# Sərhəd-keçid məntəqəsinin doğurduğu REZONANS



9

## Bakıda keçirilən "Formula 1" yarışları nə ilə yadda qaldı?



7

## İkinci, yoxsa neçənci cəhd?



11

## Bariz humanizm: əfv, amnistiya, bağışlamaq



15



16

## Xarici turistlərin regionlara marağı niyə azdır?

## Aslanqeyrətlilər, tülküqeyrətlilər...



12

# "TEKNOFEST"
## - Dünyanı heyrətləndirən birlik



RƏCƏB TAYYİB ƏRDOĞAN:
"Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi"

İLHAM ƏLİYEV:
"Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".



Müqəddəs deyim var: "Haqlısansa qorxma, haqq səni qoruyacaq!". Bəli, haqlı olduğumuz üçün haqq, ədalət, ərazi bütövlüyümüz bərpa oldu. Və bu gün qədim tarixlərin sınağından çıxmış, aforizm kimi dillər əzbəri olan "Azərbaycan-Türkiyə - Bir millət, iki dövlət" həmrəyliyinin nəticəsində Qələbə Zəfrinə nail olduq. Çünki tariximizin ən önəmli anlarında Azərbaycan və Türkiyə bir yerdə olub. 2018-ci ildə Bakının erməni işğalından azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxdılar. Bunun təkrarı 2020-ci 10 dekabr tarixində Zəfər paradında yaşandı. Paradda qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların iştirakı Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının daha bir əyani nümunəsi oldu. Bütün dünya bir daha gördü ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə Mustafa Kamal Atatürkün ifadə etdiyi kimi, sevincli günlərdə də, kədərli günlərdə də daim bir-birinin yanındadır. 2021-ci il 15 İyun - Milli Qurtuluş Günündə Şuşada Azərbaycan-Türkiyə müttəfiqliyini təsdiqləyən sənədin imzalanması mərasimi keçirildi. Dünyaya Şuşa Bəyannaməsi kimi səs salan bu sənəd iki qardaş ölkənin münasibətlərinin gələcək inkişafını özündə ehtiva edir. Hər zaman Azərbaycanın, Prezident İlham Əliyevin yanında olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci ildə Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının, 2022-ci ildə isə Şərqi Zəngəzurun dünyaya açılan hava qapısı olan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimlərində iştirak etdi. Rəcəb Tayyib Ərdoğan Qarabağımıza ilk səfər edən, həmçinin ilk xarici uçuşu həyata keçirən dövlət başçısıdır. Füzuli Beynəlxalq Hava Limanının açılışından sonra Zəngilana səfər edən iki dost, qardaş ölkə liderləri "Dost Aqropark"ın təməlini qoydular. "Dost Aqropark" Azərbaycan və Türkiyənin birgə həyata keçirəcəyi investisiya layihəsidir. O da məlumdur ki, Füzuli Beynəlxalq Hava Limanı da Azərbaycan və Türkiyə mütəxəssislərinin birgə səyləri nəticəsində tikilib istifadəyə verildi. Türkiyədə dəniz üzərində həyata keçirilən böyük layihə - Rize-Artvin Hava Limanının iki qardaş ölkənin rəhbərləri - Prezident Rəcəb Tayyib Ərdoğan və Prezident İlham Əliyevin iştirakı ilə açılışı Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bir daha dünya birliyinə nümayiş etdirdi. Prezident İlham Əliyevin yeni istifadəyə verilmiş hava limanının açılış mərasiminə dəvət edilməsi təsadüfi deyildi. Bu, iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasından xəbər verməklə yanaşı, həm də Türkiyə-Azərbaycan dostluq və qardaşlığının bir-birinə qırılmaz tellərlə bağlı olmasının təsdiqidir. Həmçinin, ötən ilin mayında, həmçinin "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının keçirilməsi Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının növbəti təzahürüdür.

Növbəti qardaşlıq görüşü aprelin 29-da Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirakı ilə bağlı bu il 3-cü dəfə Türkiyəyə səfəri olub. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank və digər rəsmi şəxslər qarşılayıblar.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan "Togg" avtomobili ilə festivalın keçirildiyi məkana gəliblər.Yolboyu düzülən festival iştirakçıları prezidentləri, birinci xanımları gül-çiçək dəstələri və sürəkli alqışlarla qarşılayıblar. Sonra xatirə şəkli çəkdirildi. Aprelin 29-da İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bir daha dünyaya mesajını verərək bildirdi ki, "TEKNOFEST"də iştirak etmək bir daha Türkiyə və Azərbaycanın dost, qardaş ölkələr olaraq həmişə bir yerdədir.

### "TEKNOFEST" - DÜNYANI HEYRƏTLƏNDİRƏN İKİ DOST, QARDAŞ, MÜTTƏFİQ ÖLKƏLƏR - AZƏRBAYCAN VƏ TÜRKİYƏ SARSILMAZ BİRLİKLƏRİ, HƏMRƏYLİKLƏRİ

Bəli, bu birliyin növbəti gücünü Azərbaycan-Türkiyə liderləri Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında bir daha nümayiş etdirdilər. Azərbaycan Prezidenti İlham Əliyev Festivalda çıxışı zamanı bildirdi ki, bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır: "Qardaş ölkədə yenidən olmağımdan çox məmnunam. Sizə Azərbaycan xalqının səmimi salamlarını gətirmişəm.

Ardı Səh. 3

# "TEKNOFEST" - Dünyanı heyrətləndirən birlik

Əvvəli Səh. 2

Bir il öncə "TEKNOFEST" festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz "TEKNOFEST"də iştirak etmişdik. Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir".

### AZƏRBAYCAN PREZİDENTİ: "Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır"

Prezident İlham Əliyev çıxışı zamanı bildirdi ki, Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir: "Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır".







### PREZİDENT İLHAM ƏLİYEV: "Türkiyə və Azərbaycan hər zaman bir yerdədir"

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışında bildirib ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir.

Dövlətimizin başçısı qeyd edib ki, iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular: "O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Prezident İlham Əliyev çıxış zamanı onu da bildirdi ki, atalarımızın, əcdadlarımızın ruhu şaddır, çünki Türkiyə və Azərbaycan bir yerdədir. Və Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu: "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi".

Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Və Azərbaycan-Türkiyə bütün çətin anlarda xalqının birliyi ilə, iqtidarının səyi ilə həmişə qalib olacaq!!!

### AZƏRBAYCAN PREZİDENTİ: "Türkiyənin güclü sənayesi həm Türkiyəni, həm də onun müttəfiqlərini gücləndirir"

"Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçib. Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında söz sahibinə çevrilib, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır".

Bu fikirləri Prezident İlham Əliyev İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışında bildirib.

Dövlətimizin başçısı vurğulayıb: "Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynayır. Keçən ay Ankarada keçirilmiş Türk dövlətlərinin Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir".

Azərbaycan Prezidenti çıxış zamanı vurğulayıb ki, Türkiyənin güclü sənayesi həm Türkiyəni, həm də onun müttəfiqlərini gücləndirir. Türk ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edildiyini deyən Azərbaycan Prezidenti onu da vurğulayıb ki, ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm də bizi gücləndirir. Bu, uzun illər bundan sonra Türkiyənin güvənliyini təmin edəcəkdir: "Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır.

Ardı Səh. 4

# "TEKNOFEST" - Dünyanı heyrətləndirən birlik

Əvvəli Səh. 3

### AZƏRBAYCAN PREZİDENTİ: "Yaxın gələcəkdə Azərbaycanda "Bayraktar" mərkəzi yaradılacaq"

Bəli, bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir. Məhz aprelin 4-də dünya növbəti dəfə Azərbaycan-Türkiyə qardaşlığının nümunəsini gördü. Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edildi. "Togg"un ilk sahibinin Türkiyə və Azərbaycan prezidentlərinin olması Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daha bir parlaq nümunəsidir. Prezident İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edərkən Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda "Baykar" şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd etmişdir.






Prezident İlham Əliyev çıxışında "TEKNOFEST"in qurucusu, əziz qardaşımız Selçuk Bayraktarın xidmətlərini də qeyd edərək bildirdi ki, Selçuk bəy Azərbaycanda dəfələrlə olmuş, o cümlədən azad edilmiş torpaqlarda, Şuşada: "Selçuk bəy bu ayın əvvəlində, aprelin 3-də Azərbaycanda olarkən biz gələcək işbirliyi haqqında danışdıq və "Bayraktar" mərkəzinin Azərbaycanda yaradılması haqqında anlaşdıq. İnşallah, yaxın gələcəkdə Azərbaycanda "Bayraktar" mərkəzi yaradılacaq".

Selçuk Bayraktarın Bakıda olarkən ona "Kızılelma"nın bir maketini hədiyyə etdiyini söyləyən dövlətimizin başçısı bununla bağlı bütün qardaşlarımızı təbrik edib: "Ümid edirəm ki, yaxın gələcəkdə "Kızılelma" Azərbaycanın səmasında da olacaqdır. "Kızılelma" havada, "Altay" və "Togg" quruda, "Anadolu" dənizdə - bugünkü Türkiyə budur".

### PREZİDENT İLHAM ƏLİYEV: "Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

Dövlətimizin başçısı çıxışı zamanı növbəti dəfə Türkiyədə olduğu üçün məmnunluğunu ifadə edərək, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı da Azərbaycana səfərə dəvət etdi. Festivalda çıxış edən Prezident İlham Əliyev Azərbaycan-Türkiyə əlaqələrinə toxundu, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisini xatırladaraq, "Bir yumruq" ifadəsini də ona əlavə etdi: "Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir", deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirmişdir ki, bu gün biz bunu sübut edirik: "Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

Bəli, Azərbaycan Prezidentinin "Bir yumruq" ifadəsi ilə Azərbaycan və Türkiyənin daim birlikdə olduğunu növbəti dəfə bəyan edildi. Və Azərbaycan Prezidenti artıq ənənə halını almış "TEKNOFEST" festivalında bu il də iştirak etməklə iki dövlət arasında olan qarşılıqlı həmrəyliyi bütün dünyaya göstərdi.

### TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma çox təşəkkür edirəm"

Aprelin 29-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışında bildirib: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma çox təşəkkür edirəm".

Türkiyədə baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılmasında Azərbaycanın dəstəyini yüksək qiymətləndirən Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun, qardaşlığın nə demək olduğunu göstərdi: "Əziz qardaşım İlham Əliyev lap əvvəldən mərkəzi Pazarcık olan zəlzələdə bizi heç vaxt yalnız qoymadı. İlk andan etibarən axtarış-xilasetmə heyətləri Kahramanmaraşda bizimlə birlikdə oldu. Onunla da kifayətlənmədi, daha sonra İlham qardaşım Kahramanmaraşda min evin inşa ediləcəyinə söz verdi. Təbii ki, orada məktəbi, məscidi, yataqxanası və yaşayış binaları olan bir Azərbaycan şəhəri inşa etməyi qərara aldı. Bu layihəni, İnşallah, qısa müddətdə haqqı çatanlara Azərbaycanın əli ilə təqdim edəcəyik. İlham qardaşım deyir ki, bir ildə başa çatdırılmalıdır, xeyirli olsun".

Kahramanmaraşda təməli qoyulan evlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Türkiyə Prezidenti dedi: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi".

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin yüksək texnologiyalara əsaslanan layihələr həyata keçirdiyini qeyd edərək vurğuladı: "Təkcə son aylarda yaşadığımız inkişafı sizlər də gördünüz. Bir az əvvəl əziz qardaşım İlham Əliyev də dedi: "Kızılelma" havaya qalxdı, "Togg" satışa çıxarıldı. Budur, "Kızılelma", "Akıncı" qarşımızdadır, "TCG Anadolu" gəmisi Dəniz Qüvvələrinə təqdim edildi".

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk dünyasının böyük oğlu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış xatirə əsginasını təqdim etdi.

Çıxışlardan sonra "TEKNOFEST" çərçivəsində keçirilmiş müsabiqələrin qaliblərinin mükafatlandırılması mərasimi oldu. Müsabiqənin qalibləri ilə xatirə şəkilləri çəkdirildi. Sonra "Kızılelma" pilotsuz uçuş aparatının səmada manevrləri izlənildi.

"Baykar" şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktar Azərbaycan Prezidenti İlham Əliyevə, Liviyanın Baş naziri Əbdülhəmid Dibeybeyə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana xatirə hədiyyələri təqdim etdi.

Bir sözlə, "TEKNOFEST" Azərbaycan və Türkiyə liderlərinin növbəti dəfə sarsılmaz birliklərinin, həmrəyliklərinin dünyaya nümayişi olmaqla, "Togg" elektromobilinin ilk iki nüsxəsi Prezident Rəcəb Tayyib Ərdoğana və Prezident İlham Əliyevə təqdim edilməsi "Bir millət, iki dövlət" məntiqinə əsaslanan müttəfiqliyin bariz nümunəsi, iki güclü ölkənin liderlərinin qardaşlığının daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir. Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Dövlət başçımızın söylədiyi kimi: "Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək!".

**RƏFİQƏ KAMALQIZI**




# "Azərbaycan sülh gündəliyini dəstəkləyir"

*Antoni Blinken Prezident İlham Əliyevə zəng edib*

Aprelin 30-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Antoni Blinken Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin davam edəcəyini bildirib. ABŞ Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib və Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulmasına toxunub.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib.

Azərbaycan-Ermənistan sərhədində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar Prezident İlham Əliyev bildirib ki, bu məntəqənin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib.

Azərbaycan Prezidenti vurğulayıb ki, məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir. Telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağı qeyd edilib.

# Azərbaycan daima dünya səviyyəli tədbirlərə ev sahibliyi edir!

## Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidentini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib. Görüşdə Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında uzun illər mövcud olan uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi.***

Azərbaycanda Formula 1 yarışlarının yüksək səviyyədə təşkil edilməsinin əhəmiyyəti qeyd olundu. Vurğulandı ki, ölkəmizin uzun illər dünya səviyyəli çox önəmli tədbirlərə, o cümlədən idman yarışlarına ev sahibliyi etməsi beynəlxalq əməkdaşlığa mühüm töhfə verir. Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.



# Prezident İlham Əliyev Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev mayın 1-də Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Uluqbek Rozukulovu qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, Özbəkistanda referendumun uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevə təbriklərini çatdırmağı xahiş etdi. Referendumu qardaş Özbəkistanın hərtərəfli inkişafı və demokratiyanın möhkəmlənməsi istiqamətində mühüm addım kimi dəyərləndirən Azərbaycan Prezidenti qeyd etdi ki, bu referendum, eyni zamanda, Özbəkistan Prezidentinin həyata keçirdiyi kursa xalqın göstərdiyi etimaddır.

Prezident İlham Əliyev Özbəkistana səfərləri zamanı bu ölkədə gedən böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Özbəkistan Prezidenti ilə keçirilən görüşlər zamanı əldə olunmuş razılaşmaların, o cümlədən avtomobil istehsalı sahəsində həyata keçirilən işlərin də əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Uluqbek Rozukulov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi. Şavkat Mirziyoyevin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini vurğulayan qonaq dövlət başçılarının tapşırıqları əsasında azərbaycanlı həmkarları ilə daim əzmlə çalışdıqlarını diqqətə çatdırdı.

Uluqbek Rozukulov ölkəmizə səfəri çərçivəsində Hacıqabul Sənaye Məhəlləsində iki istehsal müəssisəsinin - qaynaq və boyama fabriklərinin təməlqoyma mərasimində iştirak edəcəyi barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd etdi ki, hər iki müəssisə Azərbaycanda avtomobil istehsalının lokallaşdırılması istiqamətində növbəti addım olmaqla sənayenin bu sahəsinin inkişafına töhfə verəcək. Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# Azərbaycan "Boeing" şirkəti ilə uğurlu və etibarlı əməkdaşlıq edir

## Azərbaycan Prezidenti İlham Əliyev "Boeing" şirkətinin icraçı vitse-prezidentini qəbul edib



Prezident İlham Əliyev aprelin 30-da "Boeing" şirkətinin icraçı vitse-prezidenti, "Boeing Commercial Airplanes" şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edib. Görüşdə Azərbaycan ilə "Boeing" şirkəti arasında 8 ədəd müasir "Boeing 787 Dreamliner" təyyarəsinin alınmasına dair bu yaxınlarda razılaşmanın əldə olunması mühüm hadisə kimi qiymətləndirildi. Azərbaycan ilə "Boeing" şirkəti arasında uzun illərdir uğurlu və etibarlı əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda nəqliyyat sahəsində böyük işlərin həyata keçirilməsindən bəhs olundu, ölkəmizin mühüm beynəlxalq və regional nəqliyyat habına çevrildiyi, yeni hava limanlarının açıldığı qeyd edildi.

Qarabağda və Şərqi Zəngəzurda yeni hava istiqamətlərinin açılmasının önəmi vurğulandı, əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Formula 1 yarışının Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, ölkəmizə xeyli sayda turistin gəlməsinin önəmi vurğulandı. Azərbaycanın mötəbər tədbirlərin keçirildiyi məkana çevrildiyi və ölkəmizin beynəlxalq əməkdaşlıq işlərinə töhfə verdiyi qeyd edildi.

# "Formula-1" - beynəlxalq əməkdaşlığa mühüm töhfə

Paytaxt Bakıda start götürən elit yarışmalarından olan "Formula-1" - Qran-Prisinə yekun vuruldu. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan beynəlxalq yarışa ev sahibliyi etməklə iqtisadi gücünü, inkişafını, qonaqpərvərliyini, multikultural dəyərlərini, sabitlik adası kimi əmin-amanlığın hökm sürdüyü məkan olduğunu bir daha dünyaya nümayiş etdirdi. Belə yarışların Azərbaycanda keçirilməsi, hər bir sahədə olduğu kimi, idman sahəsində də ölkəmizin böyük nüfuz qazandığının təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini artırıb.



## İlham Əliyev: "Formula-1" yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir"

### AZƏRBAYCAN QRAN-PRİSİ







### 2026-CI İLƏDƏK FORMULA 1 TƏQVİMİNDƏ

Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir.

Bakının "Formula-1" kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Dünyada yarım milyarddan artıq tamaşaçı auditoriyası olan "Formula-1" yarışının növbəti dəfə Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Bu, həm də onu göstərir ki, qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmiz qarşıya qoyulan hər bir məqsədə, hər bir niyyətə uğurla çatır. Azərbaycan Qran-Prisinin 2026-cı ilədək Formula 1 təqvimində qalması da təsadüfü deyildi.

### ƏN SÜRƏTLİ YARIŞLAR KATEQORİYASI - BAKI TREKİ

Bildiyimiz kimi, aprelin 30-da Bakı şəhər halqasında Formula 1 üzrə dünya çempionatının dördüncü - Azərbaycan Qran-Prisinin əsas yarışı keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışa baxıblar. Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 28-də start verildi. Azərbaycan Formula 1 yarışlarına yeddinci dəfədir ev sahibliyi etmiş oldu. Avropa Qran-Prisi adlandırılan ilk yarış 2016-cı ildə təşkil olunub. "Formula-1" yarışlarının Bakı mərhələsi dünyada böyük maraq doğurub. Bakı bütün iştirakçıları və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdırdı. Bu da paytaxtımız ətrafında kifayət qədər məlumatı dünya ictimaiyyətinə çatdırmış oldu. Belə ki, yarış zamanı qonaqlar İçərişəhər Tarixi-Memarlıq Qoruğunu, şəhərin müasir göydələnlərini və s. görərək, ecazkarlığı seyr etdilər və yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin gözəlliyini görmək imkanı qazandılar. Uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometr olan Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

"Formula-1" Azərbaycan Qran-Prisini izləmək üçün ölkəmizə gələn çoxlu sayda turistlər tarixi məkanlar, istirahət mərkəzləri ilə tanış olublar. Həm müasir, həm də qədim şəhərlə tanış olublar. Ənənələr, mədəniyyət, tarixin qorunduğu şəhər hər kəsdə zəngin təəssürat oyadıb. "Formula-1" Azərbaycan Qran-Prisi dünyanın nüfuzlu ölkələrini mətbuatında yer alıb. Dünya ölkələrinin KİV-ləri Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran-Prisindən yazaraq həmişə yüksək təşkilatçılıq bacarığı ilə seçilən Azərbaycanın "Formula-1" Qran-Prisinə də müvəffəqiyyətlə ev sahibliyi etdiyini, yarışın gedişini, çəlbediciliyini diqqətə çəkərək, pilotlar, eləcə də burada olan yenilikləri və s. məlumatları oxuculara çatdırıblar. Beləliklə, növbəti "Formula-1" Azərbaycan Qran-Prisi uğurla başa çatdı. Bu dəfə Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirdi.

Əlbəttə ki, ölkəmizdə bir sıra önəmli beynəlxalq idman yarışlarının təşkili onun siyasi-iqtisadi nüfuzundan xəbər verir. Azərbaycan dövləti bununla da dünyaya sülh mesajını verir.

Hər hansı ölkədə mötəbər yarış keçirilirsə, bu, həmin ölkəyə turist axını gətirir. Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bu yarışın ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: "Birincisi, "Formula-1" yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, "Formula-1" yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə". Cənab Prezident birinci "Formula-1"-dən sonra Azərbaycana kütləvi turist axınının başladığını bildirib: "Xaricdən gələn minlərlə qonaq







burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz".

Bakıda keçirilən bu yarış, ən yaxşı yarış hesab edilir. Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdırdı. Təbii ki, Bakıda pilotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yarışırdılar. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə, azarkeşlərdə xoş ovqat yaratmış oldu. Hər zaman olduğu kimi, yüksək təşkilatçılığı ilə paytaxt bu yarışın təşkilində öz sözünü demiş oldu.

***Zümrüd BAYRAMOVA***

# Bakıda keçirilən ”Formula 1” yarışları nə ilə yadda qaldı?

2023 ”Formula 1” Azərbaycan Qran-prisi ötən gün başa çatdı. Azarkeş sayına görə bu il rekord vuran ”Formula 1” yarışlarına 100 ölkədən çox turist gəlmişdi. 30 minə yaxın sürət həvəskarının canlı izlədiyi Azərbaycan Qran Prisinin qalibi ”Red Bull”dan Serxios Peres olub. 7 il ”Formula 1” yarışlarına ev sahibliyi edən Azərbaycan növbəti 3 ildə də bu yarışın mərkəzinə çevriləcək. Belə ki, 2026-cı ilədək ”Formula 1” yarışları Bakıda keçiriləcək. Gəlin görək paytaxt sakinləri 2023 ”Formula 1” Qran-prisi barədə nə düşünür? Bu il keçirilən ”Formula 1” yarışları onlarda hansı təəssüratlarla yadda qalıb? Mövzu ilə əlaqədar SİA olaraq paytaxt sakinləri arasında sorğu keçirdik.



**Şəhər sakini Nicat Məmmədov:** ”Mən restoranda çalışıram və üç gün içərisində ”Formula 1” yarışlarının davam etdiyi günlər demək olar ki, şəhərin mərkəzində yerləşən bütün resto-



ranlar insan çoxluğuna bürünmüşdü. Hətta gecə saatlarına qədər turistlər restoranlara qida qəbul etmək üçün üz tuturdular. Məncə, bu, ölkəyə gələn gəlirlərin artırılması və restoran sisteminin daha işlək bir formada fəaliyyət göstərməsi üçün yaxşıdır. Ümidvaram ki, gələn illərdə ”Formula 1” yarışları zamanı ölkəyə turist axını daha çox olar”.

**Şəhər sakini Elmira Sultanova:** ”Mən ”Formula 1” yarışlarını çox sevirəm. Hətta bu il izləyici kimi bilet alıb



getmişdim ki, bu yarışın həyəcanını daha yaxşı hiss edə bilim. Düşünürəm ki, bu cür beynəlxalq oyunlar ölkəmiz üçün mühümdür. Düzdür, yollarda oyun günləri bəzi problemlər yaransa da, məncə, müvəqqətidir. Ona görə də müəyyən şeylərə bir neçə gün səbr etmək olar”.

**Şəhər sakini Yavər Nurullayev:** ”Təbii ki, belə yarışların ölkəmizdə keçirilməsi bizə turist baxımından müs-



bət təsir göstərir. Şəhər sakinləri yarış günlərində yollarda müəyyən problemlərlə üzləşirlər. Bu baxımdan, bir çox insan çətinlik çəkir. Amma hesab edirəm ki, belə yarışları izləmək zövqvericidir”.

**Şəhər sakini Şəbnəm Nəzərova:** ”Artıq uzun müddətdir ki, hər il ölkəmizdə ”Formula 1” yarışları təşkil olunur. Düşünürəm ki, bu cür yarışların ölkəmizdə keçirilməsi müsbət bir addımdır. Çünki belə yarışlar bizim ölkəmizi bütün dünyada tanıdır və məşhurlaşdı-



rır. Bir azərbaycanlı kimi mən də bu yarışları izləmək istərdim”.

**Şəhər sakini Sevin Qıyaflı:** ”Məncə belə yarışlar çox maraqlıdır. Bir izləyici kimi yox, könüllü şəkildə ralli yarışlarında iştirak etmişəm. Bu səbəbdən yarışı canlı izləmək imkanım olub. Tə-



bii ki, hər kəsin ideal bildiyi bir idman növü var. Fikrimcə, ”Formula 1” yarışlarını da izləmək istəyən insanların sayı az deyil”.

***Banuçiçək Hüseynli***

SORĞU

## Yakup Aslan: ”Mina terroru Azərbaycanı sülh yolundan döndərə bilməyəcək”

Azərbaycanın Tərtər rayonunda Ermənistan hərbçilərinin basdırdığı minanın partlaması nəticəsində 3 nəfərin həyatını itirməsi mülki əhali üçün təhlükəli vəziyyətin qaldığını deməyə əsas verir. Ermənistan tərəfi həqiqətən sülh və sabitlik istəyirsə, basdırdığı minaların yerini dəqiqliklə göstərməlidir. Bunun üçün beynəlxalq təşkilatlar rəsmi İrəvana təsir göstərməlidirlər. Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən ”Ulusal” telekanalının siyasi şərhçisi Yakup Aslan deyib.

O bildirib ki, mülki şəxslərin mina partlaması nəticəsində həlak olması sülh prosesinə maneə törədən amildir. Vətən müharibəsindən sonra 298 Azərbaycan vətəndaşı mina partlamasının qurbanı olub ki, onlardan 54 nəfəri həyatını itirib. Bu fakt Ermənistanın törətdiyi mina terrorunun nəticəsidir. Məsələnin mahiyyəti ondan ibarətdir hərbi əməliyyatlar dayandırılıb və sülh yolları axtarılır. Buna baxmayaraq, mina terroru davam edir.

Siyasi şərhçi hesab edir ki, rəsmi Bakı beynəlxalq təşkilatlar qarşısında ciddi məsələ qaldırmalı və Ermənistanın basdırılmış minaların yerini göstərməsini tələb etməlidir.

Ermənistanın bu cür terror aktları törətməsi beynəlxalq hüquqazidd olmaqla yanaşı, insanlığa və bəşəriyyətə qarşı cinayət də hesab edilməlidir. Heç bir təqsiri olmayan, heç bir hərbi əməliyyatda iştirak etməyən sadə insanların Ermənistanın mina terroru nəticəsində həyatlarını itirmələri rəsmi İrəvanın mənəvi dəyərinin yox səviyyəsində olduğunu ortaya qoyur.

Qarabağda cərəyan edən hadisələri diqqətlə izlədiyini bildirən Yakup Aslan qeyd edib ki, Azərbaycanın Laçın yolunda gömrük-keçid məntəqəsi yaratdıqdan sonra Tərtər rayonunda 3 nəfərin mina partlaması nəticəsində həlak olması təsadüfi olmaya bilər. Bunun həm daxildən, həm də xaricdən təzyiqlərə məruz qalan Ermənistan hakimiyyətinin təxribatı olduğunu da istisna etmək olmaz. Ermənistan hakimiyyəti regionda qeyri-sabit vəziyyətin davam etməsində maraqlı olduğunu büruzə verir. Bütün bu məsələlər araşdırılmalı və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Görünən odur ki, Ermənistan Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə barışmaq istəmir. Lakin siyasi reallıq onu deməyə əsas verir ki, güclü Azərbaycan regionda aparıcı siyasi aktora çevrilib. Ermənistan istəsə də, istəməsə də rəsmi Bakının şərtlərini qəbul edib sülhə gəlməlidir. Mina terroru Azərbaycanı sülh yolundan döndərə bilməyəcək.

## Ərdoğan: ”Azərbaycan Türkiyədəki zəlzələ bölgəsində vacib layihələr həyata keçirmək istəyir”



Azərbaycan Türkiyədə zəlzələ baş verən bölgədə önəmli layihələr həyata keçirmək istəyir. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ”TRT Türk”ə müsahibəsində bildirib.

Zəlzələ baş verə andan dünya ölkələrinin Türkiyəni tək qoymadığını söyləyən Rəcəb Tayyib Ərdoğan deyib ki, onlar ilk andan bizimlə oldular: ”Axtarış-xilasetmə qrupları göndərdilər. Birinci mərhələdə çadırlar gəldi. Konteynerlər göndərməyə başladılar. Azərbaycan bildirdi ki, 1 000 daimi ev tikmək istəyir. Dünən biz onun təməlini qoyduq. Azərbaycan həmçinin regionda təcili ehtiyac duyulan bəzi mühüm layihələri həyata keçirmək istədiyini bildirib”.

Türkiyə Prezidentinin sözlərinə görə, bütün dünyadakı türk vətəndaşları əllərində olan hər şeyi səfərbər edərək köməyə tələsiblər: ”Biz bunları heç vaxt unuda bilmərik və heç vaxt unutmayacağıq”.

## Mətyu Brayzə: ”Fransa Ermənistanın tərəfini seçib”



Azərbaycan və Ermənistan arasında sülh sazişi yolunda etimad tədbirlərindən biri minaların təmizlənməsi sahəsində bu iki ölkənin əməkdaşlığı ola bilər. AZƏRTAC xəbər verir ki, bu fikirləri beynəlxalq ekspert, Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Mətyu Brayzə Qarabağda bir-birinin ardınca baş verən bir neçə mina insidentini şərh edərkən deyib. Aprelin 28-də baş verən sonuncu belə insident nəticəsində ”RPS Energy Ltd” şirkətinin üç əməkdaşı - Füzuli rayon sakinləri Yusifov Nadir Pənah oğlu və Gözəlov Səxavət İsmayıl oğlu, Sumqayıtdan Sədiyev Fərid Mehman oğlu həlak olub.

Qarabağda mina partlaması nəticəsində üç nəfərin həlak olmasını faciə adlandıran diplomat bununla bağlı başsağlığı verib.

”Mən əminliklə deyə bilmərəm ki, Ermənistan Qarabağda basdırılan minaların xəritəsinə sahibdir. Çünki hərbi əməliyyatlar zamanı çox tez-tez, - buna bənzər halları biz 2020-ci ilin payızında görmüşük, - qoşunlar minaları qeyri-müəyyən yerlərdə quraşdırırlar. Lakin əgər belə xəritələr varsa, o halda Ermənistan beynəlxalq hüquq üzrə öhdəlik daşıyır ki, bu xəritələri Azərbaycana versin. Başqa məsələ də var ki, bu xəritələr o qədər də dəqiq olmaya bilər. Başlıcası odur ki, Ermənistan minaların aşkarlanması və zərərsizləşdirilməsindən ötrü mümkün olan hər şeyi etsin. Lakin Ermənistan beynəlxalq hüquq üzrə öz öhdəliklərini yerinə yetirmir və bu, dəhşətdir. Bu, Ermənistan və Azərbaycanın nədən mümkün qədər tezliklə sülh sazişi bağlamalı olduğunun və bununla da Qarabağ məsələsini birdəfəlik həll etməsinin səbəblərindən yalnız biridir. Bu saziş yolunda etimad tədbirlərindən biri minaların təmizlənməsi sahəsində əməkdaşlıq ola bilər”, - deyə agentliyin müsahibi qeyd edib.

M.Brayzənin fikrincə, sülh sazişinin bağlanmasında əsas problem erməni müxalifətinin və diasporunun müqavimətidir: ”Bu insanlar Azərbaycanda ABŞ səfiri postuna təyin olunanda mənə qarşı çıxan insanlardır. Məsələn, türklərə, azərbaycanlılara, mənə nifrət edən Amerikanın Erməni Milli Konqresi hər cür təxribat törədir və bu ədavət sayəsində qazanc əldə edirlər. Məhz onlar hadisələri İkinci Qarabağ müharibəsinin başlanmasına gətirib çıxardılar. Bu gün başa düşürlər ki, sülhün bərqərar olması onların iri gəlir mənbəyinin qarşısını ala bilər”.

Ekspert hesab edir ki, əgər baş nazir Nikol Paşinyan bu qüvvələrin müqavimətini qırmağa nail olarsa, o halda Ermənistan çox şey əldə edər. ”Bu, ermənilərə təkcə sülhlə deyil, iqtisadi artım, iş yerləri, zənginlik, təhlükəsizlik, firavan həyatla təmin edəcək. Zənnimcə, buna kömək üçün ABŞ-ın üzərinə mühüm vəzifə düşür. Şadam ki, Dövlət katibi Blinken bu məsələ ilə (Red. - bu ərəfədə Amerika Dövlət Departamentinin başçısı Antoni Blinken Azərbaycan və Ermənistan liderləri ilə telefon danışığı aparıb) ciddi məşğul olur. Hesab edirəm ki, Vaşinqtonun vasitəçiliyi ilə irəliləyiş mümkündür. Moskva artıq bu rolu oynaya bilmir, çünki Ukraynanı məhv etməklə məşğuldur, Fransa isə Ermənistanın tərəfini seçib. Ümid edirəm ki, Vaşinqton il ərzində fəallığı qoruyub saxlayacaq və sülh sazişində əsl maraq nümayiş etdirəcək”, - deyə diplomat vurğulayıb.

# Online dilənçilər: Ver yeyim, ört yatım

**Rəqəmsallaşmanın, texnoloji yeniliklərin, virtual dünyanın həyatımıza bu qədər dərin və əhatəli girməsindən sonra bir çox peşələr online rejimə keçib. İndi dilənçilər də pul qazanmağın daha rahat yolunu tapıblar, əllərində telefon sosial şəbəkələri gəzirlər. Birindən pul, birindən ərzaq, birindən geyim istəməklə evdə otura-otura güzəranlarını yaxşılaşdırırlar.**

## Kart hesabı ilə dilənənlər

Dilənçilik bəşəriyyət mövcud olandan bəri var olan bir peşədir. Bəzi dövrlərdə artıb, bəzi dövrlərdə azalıb. Amma dilənçilik heç bir cəmiyyətdə tam olaraq aradan qalxmayıb. Təbii ki, dilənçiliyin bir çox növləri var. Amma bu yazıda son illər geniş yayılan "virtual dilənçilik"lə bağlı danışmaq istədim.

"Virtual dilənçilər" və ya "sosial şəbəkə dilənçiləri" kimi tanınan bəzi insanlar rəqəmsal dünyanı gəlir mənbəyinə çeviriblər. Yalan paylaşımlarla insanların mərhəmətini sümürərək pul tələb edən virtual dilənçilər insan ləyaqətinin nə qədər alçala biləcəyini göstərirlər. Yalandan balasını öldürən kim, anasını qəbrə qoyan kim, yoldaşını ölümcül xəstə edən kim. Hərə bir kart hesabı yayıb kömək dilənir. Onların kölgəsində qalan həqiqətən ehtiyaclı, xəstəsi olan insanlara da inamımız itir.

İnternetin həyatımızdakı ən vacib amilə çevrilməsi, əlimizdəki telefonların, önümüzdəki monitorların az zamanda çox işi görməsi təbii ki, həyatımızı bir çox cəhətdən asanlaşdırdı. Təbii olaraq bir çox iş zamanla virtual dünyaya inteqrasiya etdi.. Banklar internet bankçılığa keçdi, mağazalar online satışla məşğul oldu, kafelər yeməklərini online yolla satdı, təhsil distant üsulla verildi və s. Dilənçilər də texnologiyaya uyğunlaşdılar. İndi bir çox dilənçi virtual mühitdə dilənməyə başlayıb. Axı biz həmişə deyirik, texnologiya inkişaf edib və hamı onunla ayaqlaşmalıdır. Bunun bir nümunəsi də dilənçilər oldu.

Klassik dilənçilərin ən çox dilləndikləri yer insanların gur olduğu yerlər idi, onların müasirləri dilənmək üçün ən münasib yeri - sosial şəbəkələri seçib. Sizə maraqlı gələ bilər, hətta internet məkanında virtual dilənçilik üçün saytlar da var. Bu saytlara üzv olub reklam verəndə sədəqə toplasanız, platformaya müəyyən komissiya verib saytda dilənməyə davam edə bilərsiniz. Amma dilənçilər üçün sosial şəbəkələr daha münbit yerdir. Burada dilənçilik edənlərin daha çox qazanc əldə etdiyini deyə bilərik. Vasitəçi olmadığı üçün iş daha asandır və hər təbəqədən olan insanlar var. Üstəlik, daha çox mərhəmətli və tez aldanan olurlar, onların inamından sui-istifadə etmək asan olur.



## Kimlər, niyə, necə?

Dilənənlər müxtəlif olur. Daha çox ailə başçısını itirdiyini deyən qadınların paylaşımı rastımıza çıxır. İddiaları belədir, bir çox halda yalan olur. Böyük qruplarda, səhifələrdə tez-tez paylaşım edirlər, təsirli mətn yazırlar, uşaqlarının ac olduğunu, işləyib qazandığı pulun yalnız kirayəyə və kommunal xidmətlərə yetdiyini, çətinlik çəkdiklərini iddia edirlər, kart hesabı atıb yardım istəyirlər. Bizim milli psixologiyamız elədir ki, uşaqların adı olan hər yerdə həyat durur, onlar bizim qırmızı xəttimizdir. Uşaqlarının ac olduğunu deyən birinə sorğu-sualsız hamı yardım edir. Bəzən şahidi olmuşam ki, bir paylaşımına 200-300 manat pul yığılıb. Bu paylaşımlar hər gün, fərqli adlarla, fərqli profillərlə edilir, mətni və nəql elədiyi hekayəni dəyişməklə təbii ki.

Qazi ailəsi olduğunu iddia edənlər də dilənənlər arasında çoxluq təşkil edir. Həyat yoldaşının müharibə iştirakçısı olduğunu, müharibədə yaralandığını, müalicə üçün maddi vəsaitlərinin olmadığını, qazinin öz vəziyyətindən utanaraq şəxsən müraciət etmədiyini iddia edən naməlum profillər vasitəsi ilə ianə toplanır. Toplanan vəsait hara gedir, necə və nəyə xərclənir, məlumdur. Qazi yalanı işin mərhəmət sümürmə nöqtəsidir, əslində, yazan online dilənçilərdir.

Övladının xəstə olduğunu iddia edənlər də çoxdur. Oxunmayan və yaxud kimə aid olduğu məlum olmayan bir xəstəlik tarixçəsini sosial şəbəkələrdə yayıb kömək istəyənlərə həkim məsləhət görəndə, özün həkimə aparmaq istəyəndə, evini, uşağı görmək istədiyini yazanda yoxa çıxır, hesabını dondurur. Lakin deməliyəm ki, həqiqətən xəstə övladının şəklini, videolarını yayan insanlar da var ki, müalicə, həkim təklif edəndə razılaşırlar. Çünki paylaşımda məqsəd pul yığmaq yox, övladını müalicə etdirə bilməkdir.

## Yardım edək, ya etməyək?

Uzun illərin sosial şəbəkə istifadəçisi kimi deyərdim ki, araşdırmadan əsla! Sizə yazan, yardım istəyən, pula ehtiyacı olduğunu deyən insanı şəxsən tanımırsınızsa əsla inanmayın. Əmin olun ki, həqiqi ehtiyacı olan şəxs nə evini, nə ailəsini, nə də özünü gizlətməz, anonim paylaşım etməz. Əgər nə adı, nə profil şəkli, nə də haqqında olan məlumatlar dəqiq deyilsə, böyük ehtimalla online dilənçidir, insanların mərhəmətini sümürməklə özünə gəlir yeri əldə edib.

Qəssab dükanı önündə marığa yatmış pişik kimi yardım qruplarında fürsət gözləyən bu cür insanlar əlləri-



nə keçən bütün imkanlardan istifadə etməklə hər ay yaxşı gəlir əldə edirlər. Mərhəmətinə yenilib son manatını paylaşılan kart hesabına göndərən insanların sayəsində ən yaxşı yerlərdə əylənir, ən bahalı əyləncə məkanlarında gəzirlər. İanə edilən pullarla bir qazinin, bir uşağın, bir ailənin köməyinə yetdiyini düşünən saf insanlar beləcə aldadılır. Aldadıldığının fərqinə varanda çətin ki, bir də kiməsə kömək etmək fikrinə düşsün. Həqiqi ehtiyaclı insanlar da o fırıldaqçıların kölgəsində qalır.

***Lalə Mehralı***



**Elçin Bayramlı**

## 1 May bayramı niyə qeyd edilmir?

Haymarket üsyanı, anarxistlərin edamı- qanla boyanmış may günləri və sinfi qarşıdurmaların sonrakı xronikası dünya əməkçilərinin şərəfli tarixinin ən yaddaqalan hissələridir. Bu tarixin simvolu isə 1 May bayramıdır.

XX əsrin əvvəllərində Avropada ən fəal ictimai hərəkat üzvlərindən biri olan alman qadını Roza Luksemburq 1894-cu ilin fevralında Parisdə dərc olunmuş "May bayramı necə yarandı?" adlı tarixi məqaləsində yazırdı: "Azad düşüncə- 8 saatlıq iş gününün nailiyyəti üçün vasitə kimi bir proletar bayram günü tətbiq etmək ilk dəfə Avstraliyada ortaya çıxdı.

Yerli işçilər 1856-ci ildə artıq toplantı və əyləncə ilə əlaqədar səkkiz saatlıq iş gününün lehinə nümayiş olaraq bir günlük özlərini tamamilə işdən azad etməyi qərara aldılar. Bu proses tez bir zamanda başqa ölkələrə yayıldı. Avstraliyalı əməkçilərin bu nümunəsini daha sonra amerikalılar təkrarladı.

1 may 1886-cı ildə demək olar ki, ABŞ-ın bütün sənaye mərkəzlərində- Nyu-York, Çikaqo, Filadelfiya, Baltimorda... 200 mindən çox işçi boykota başladı. Çikaqoda 80 min işçi "8 saatlıq iş günü" tələbi altında sıx sıralarla möhtəşəm yürüş keçirdi.

1889-cu ilin iyulunda Parisdə toplanan II İnternsionalın 1-ci Konqresində 1 May tarixi dünya zəhmətkeşlərinin birlik, mübarizə günü olaraq qəbul edildi. Hər ilin 1 may tarixini ümumxalq bayramı qeyd etmək qərarı verildi".

1920-ci ildən başlayaraq 1 may Azərbaycanda da rəsmi bayram günü kimi qeyd olunub. Lakin hələ 1919-cu ildə əməkçilər 1 May bayramı qeyd edilərkən Rəsulzadənin rəhbərliyi ilə Müsavat hökuməti bu bayramda fəal iştirak edib.

Fəhlə-kəndli dövləti olan Sovet İttifaqında və digər sosialist ölkələrində bu bayram daha yüksək səviyyədə keçirilirdi. 40 yaşdan yuxarı vətəndaşlarımız 1 May bayramını yaxşı xatırlayırlar. Bayramdan bir neçə gün öncə bütün ölkə boyu- idarə, müəssisə və təşkilatlarda, məktəblərdə böyük çoşğu ilə hazırlıq gedirdi.

Mayın 1-də şəhər və kəndlərdə böyük nümayişlər keçirilər, möhtəşəm bayram əhvalruhiyyəsi hökm sürərdi. Paradlar keçirilər, peşəsində fərqlənən əməkçilərə mükafatlar, fəxri adlar verilərdi. Keçirilən tədbirlərdə, televiziya və mətbuatda insanlara əməyin, zəhmətin nə qədər vacib olduğu aşılanardı. Bayram nümayişlərindən sonra insanlar təbiət qoynuna qısa gəzintiyə istirahətə çıxardılar.

Lakin SSRİ-nin dağılmasından sonra "qurunun oduna yaşı da yandırdıq" və bir sıra yaxşı ənənələr kimi 1 May bayramı da ləğv edildi. Halbuki 1 May dünyanın əksər ölkələrində zəhmətkeşlərin beynəlxalq həmrəylik günü olaraq dünyanın 100-dən artıq ölkəsində ictimai bayram kimi, 70-ə yaxın ölkəsində isə dövlət səviyyəsində rəsmi bayram günü kimi qeyd edilir.

1992-ci ildə keçmiş prezident Əbülfəz Elçibəyin göstərişi ilə (sanki faşistlərin, yaxud ermənilərin bayramı imiş kimi) 1 mayın rəsmi səviyyədə qeyd edilməsinə son qoyuldu. Həmin ilin oktyabrında Azərbaycanın rəsmi bayramları haqqında qanun qəbul edilərkən heç bir əsas olmadan 1 May o sıraya daxil edilmədi.

Azərbaycan sosial yönümlü dövlətdir və ölkəmizdə sosial hüquqlar bərqərar olunub. Buna görə də, zəhmətkeş əməkçilərin ildə bir günü həmrəylik bayramı kimi qeyd etmələrinə haqqı var.

1 may zəhmətin, əməyin, halal gəliri ilə yaşanların bayramıdır. Ona görə də, ölkəmizin qurulmasında böyük əməyi olan bütün əməkçilərin bu bayramı qeyd etməyə haqqı var.





# Sərhəd-keçid məntəqəsinin doğurduğu REZONANS



**Laçın yolunda sərhəd-keçid məntəqəsinin qurulması təkcə Ermənistanda deyil, eləcə də Rusiyada belə rezonans doğurmuş oldu. Sərhəd-keçid məntəqəsinin qurulmasından dərhal sonra Rusiya sülhməramlılarının komandanı Volkovun Lentsovla əvəzlənməsi bunu təsdiq edir. Təsdiq edir ki, Azərbaycanın atdığı hüquqi addım və cəsarətli qanuni gediş rusların da diqqətini cəlb edib və Lenstsovun dərhal bölgəyə göndərilməsi müəyyən suallar doğurmaya da bilməz. "Kreml nə düşünür, nə etmək niyyətindədir və nə planlaşdırır" sualı əlbəttə ki, mövcud vəziyyət üçün ən çox düşündürücü sualdır.**

Sözsüz ki, sərhəd-keçid məntəqəsinin qurulması ruslar üçün arzuolunmaz, yaxud da, ən azından gözlənilməz oldu. Laçın yoluna nəzarət missiyasını üzərinə götürən sülhməramlı kontingenti üçün isə bu məqam ümumiyyətlə, qəbuledilən deyildi, amma reallıq göz önündədir və bu reallığın kimləri isə müəyyən addımlar atmağa vadar etdiyi dərhal özünü göstərdi. Volkovun Lentsovla əvəzlənməsi təsdiq etdi ki, sərhəd-keçid məntəqəsinin qurulması ilə bağlı Azərbaycanın atdığı cəsarətli addım rusları heç də qane etməyib və Rusiya sülhməramlılarının yeni komandanının dərhal bölgəyə göndərilməsi Moskvanın mövcud situasiyanı dəyişmək niyyətində olduğunu göstərir.

Nəzərə almaq lazımdır ki, öz ərazilərində təhlükəsizliyi təmin etmək, həmin əraziləri xarici müdaxilələrdən qorumaq Azərbaycanın suveren hüququdur və bu məqsədlə ərazisinə silah-sursat daşınmasının qarşısını almaq üçün sərhəd-keçid məntəqəsi qurmağa haqqı çatır, hansı ki, buna görə ölkəmizə hərhansı bir narazılıq belə ifadə oluna bilməz. Kimsə, yaxud hansısa qüvvə Azərbaycan əsgərini sərhəd-keçid məntəqəsindən çıxarmaq, həmin məntəqədə qaldırılan Azərbaycan bayrağını endirmək iqtidarında deyil. Ələlxüsus rusiya sülhməramlıları belə bir fikrə düşə bilməzlər, çünki məhz onların gözləri önündə separatçılar Azərbaycan ərazilərinə, erməni əsillilərin məskunlaşdığı ərazilərə silah-sursat, mina, hərbi texnika, eləcə də canlı qüvvə yığırdılar və buna elə sülhməramlı kontingent özü ən azından müşahidəçi mövqedən yanaşırdı. Hətta separatçıların onların, sülhməramlıların köməyindən, dəstəyindən də istifadə etmədən buna cəsarət belə edə bilməyəcəyini hər kəs yaxşı bilir. Bu baxımdan sülhməramlıların indi özləri üçün arzuolunmaz hesab etdikləri vəziyyətlə bağlı narazılıq belə ifadə etmək kimi bir niyyəti də ortaya çıxa bilməz. Amma etiraf etmək lazımdır ki, ruslar mövcud vəziyyətə bacardıqca müdaxilə etmək, yaxud da situasiyanı az da olsa, özlərinə lazım olan istiqamətdə dəyişmək arzusundadırlar. Bəs görəsən, onların dəyişmək istədikləri nədir və nəyə nail olmağa çalışırlar? Volkovu əvəzləməklə Moskva nə kimi dəyişiklik edəcəyinə ümid edir və hansı niyyətini gerçəkləşdirmək istəyir?

Azərbaycan əsgərinin Laçın yolunun girişinə qoyulan postda dayanmasından sonra ermənilərin sülhməramlı kontingentinə irad bildirməyə başladıqları Kremli ən azından narahat etməyə başlayıb. Başda elə erməni baş nazir Nikol Paşinyan olmaqla Ermənistan tərəfi Rusiyaya narazılıqlarını açıq şəkildə ifadə etmələri rusların bölgədə mövqeyinə, varlığına şübhə ilə yanaşmaq deməkdir. Bu isə Moskva üçün heç də adi hal deyil, çünki ruslar ermənilərin belə haldan istifadə edərək Qərbə meyl etmələrini əsaslandıracaqlarını yaxşı bilirlər. Yaxşı bilirlər ki, onsuz da Qərb yönümlü Ermənistan bu məqamdan istifadə edərək, Rusiyadan üz döndərmələrinə haqq qazandırmaq şansı əldə edirlər. Ona görə də Rusiya ciddi cəhdlə mövcud situasiyaya hansısa, ən kiçik olsa belə, dəyişiklik etməyi planlaşdırır. Onsuz da Azərbaycan əsgərinin Laçın yolunun girişinə qoyulan postda dayanmasına qarşı çıxa bilməyən ruslar xırda bir dəyişiklikdən başqa heç nəyə ümid etmirlər və edə bilməyəcəkləri ilə də barışıblar. O zaman bu xırda dəyişiklik nə ola bilər və nə nəzərdə tutulur?

Bəli, bu gün artıq Azərbaycan əsgəri Laçın yolunun girişinə qoyulan postda nəzarəti özü həyata keçirir. İndi ilk növbədə ermənilər bundan narahatdırlar, çünki artıq heç bir sülhməramlı kontingent, heç bir tərəf onların qanunsuz yük daşımalarına, ərazilərimizə silah-sursat, mina, hərbi texnika, canlı qüvvə gətirməsinə kömək edə, dəstək dura bilməyəcək. Onlar Azərbaycan əsgərinin gözündən belə yayına bilməyəcəklərini, hansısa yollardan istifadə edib çirkin niyyətlərini həyata keçirə bilməyəcəkərini bildikləri üçün yuxularını qarışdırıblar. Özlərini də çox ağır, çətin və problemli durumda hiss etdikləri üçün çıxış yolunu ruslara yalvarmaqda, onlardan hansısa kömək ummaqda görürlər. Son vaxtlar Ermənistan hakimiyyətinin, şəxsən Paşinyanın özünün ruslara bu xüsusda yalvarması, bəzən də sülhmətramlıları öz öhdəliklərini yerinə yetirməməkdə günahlandırması Rusiyada da rezonans doğurub və Volkovun təcili şəkildə əvəzlənməsi bunu isbatlayır. Bir halda ki, Azərbaycan əsgərini heç bir qüvvə sərhəd-keçid məntəqəsindən çıxara bilməz, bəs onda ruslar çıxış yolunu nədə görə bilərlər?

Çox güman ki, Kremlin çalışdığı Laçın yolunda qurulan sərhəd-keçid məntəqəsində Azərbaycan əsgəri ilə bərabər rus sülhməramlısının da dayanması barədə razılıq əldə etməkdir. Bir sözlə, ruslar Laçın yolunun girişinə qoyulan postda Azərbaycan əsgəri ilə birlikdə dayanmaq istəyirlər. Heç şübhəsiz ki, bundan artığına Moskva ümid edə bilməz. Hətta bununla hansısa mənada narazılığın qarşısının alınacağından başqa ikinci bir yol da görmürlər. Ən azından ermənilərin vurduqları tənədən yaxa qurtarmaq üçün buna çalışdıqları, yaxud çalışacaqları anlaşılandır. Elə Volkovun əvəzlənməsi özü belə bu niyyətlədir və rəsmi Moskva belə bir əvəzləmə ilə guya hansısa dəyişiklik edəcəyi barədə ən azından təəssürat yaratmağa çalışıb. Nə dərəcədə buna nail olduğu, yaxud olacağı hələ bundan sonra bilinəcək, amma ən azından nəyə cəhd etdiyi bəllidir.

Rusların Azərbaycan əsgəri ilə bərabər sərhəd-keçid məntəqəsində dayanmaq istəyi artıq bilinir. Təsadüfi deyil ki, hazırda bununla bağlı danışıqların aparıldığı barədə məlumatlar da yayılıb. Bunu da xatırlayırıq ki, Azərbaycan tərəfi sərhəd-keçid məntəqəsinin fəaliyyətində Rusiya sülhməramlıları ilə əməkdaşlıq ediləcəyini bir zaman açıqlamışdı. Sözsüz ki, söhbət əməkdaşlıqdan gedirdi və bu o demək deyil ki, sərhəd-keçid məntəqəsində Azərbaycan əsgəri ilə bərabər rusların da dayanacağı barədə proqnoz vermək olar. Xeyr, belə bir niyyətimiz yoxdur. Əməkdaşlıq dedikdə hələ nəyin nəzərdə tutulduğu bəlli deyil və əməkdaşlığın hansı formada olacağı barədə də bir fikir bildirmək olmaz. Ən azından indidən belə bir fikir söyləməyə dəyməz.

Doğrudur, ruslar sərhəd-keçid məntəqəsində Azərbaycan əsgəri ilə bərabər dayanmaq istəyini bildirə və bununla nəyə isə nail olacaqlarını düşünə bilərlər. Ən azından ermənilərin ağızlarını yummaq üçün buna cəhd edə bilərlər. Amma buna artıq ümid etməyə dəyməz. İstər sülhməramlı kontingentinin komandanının dəyişdirilməsi, istərsə də sərhəd-keçid məntəqəsində Azərbaycan əsgəri ilə bərabər dayanmaq istəyini izhar etmələri heç nəyi dəyişən deyil. İndi artıq sülhməramlıların da, digərlərinin də proseslərə təsir imkanları demək olar ki, yox dərəcəsindədir, nəzarət Azərbaycanın öz əlindədir. Xüsusən də, sülhməramlıların bölgəyə ilk gəlişi ilə müqaisədə onların təsir imkanları minimuma enib və yeri gəlmişkən, bu məsələdə günahın böyüyü onların özlərindədir. Əgər sülhməramlı kontingenti bu zamana qədər separatçıların qulağını vaxtı-vaxtında bursaydı, onların qanunsuz əməllərinə, ərazilərimizə silah-sursat, hərbi texnika, canlı qüvvə daşınmasına mane olsaydı, ən azından belə bir vəziyyətə düşməz, təsir imkanları da yox həddə enməzdi. Bunu elə özləri də hamıdan yaxşı başa düşürlər və indi çox ehtiyatlı yanaşmaları da bu səbəbdəndir.

Lentsovun Volkovu əvəz etməsi ilə ermənilər istədiklərinə nail ola bilməyəcəklər. Bunu ruslarla yanaşı, ermənilər də yaxşı bilirlər. Hayların əksəriyyəti bilirlər ki, Volkovun əvəzlənməsi sadəcə, guya gunahkarın Moskva tərəfindən cəzalandırılması kimi göstərmə bir addımdır. Kəskin etirazın olmaması, eləcə də müşahidə edilən proseslər təsdiq edir ki, Laçın yoluna post qoyulması reallığını Rusiya qəbul edib, bu, həmin ölkənin işinə yaramasa da. Hər bir halda sərhəd-keçid məntəqəsi ilə bağlı rezonans göz önündədir. Bu rezonansı Ermənistan tərəfinin də, Rusiyanın da davranışlarında hiss etmək heç də çətin deyil. Amma reallıq ondan ibarətdir ki, kimin, hansı tərəfin nə istəməsindən, nəyə nail olmağa çalışmasından, nəzarəti əldən vermək istəməməsindən, yaxud da başqa nələrdənsə asılı olmayaraq, artıq Azərbaycan proseslərə özü nəzarət edir və bundan sonra da belə olacaq.

***İnam Hacıyev***

# General Timoşenko:

## Heydər Əliyev mənə dedi: "Nelson Mandela birinci yerə qoyulmalı idi"

**Milli Məclisin eks-deputatı, "Şöhrət" ordenli general-mayor Vladimir Timoşenko "Caliber" analitik mərkəzinə müsahibəsində ümummilli lider Heydər Əliyev haqqında maraqlı xatirələrini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.**



*- Vladimir Vasilyeviç, söhbətimizə keçmişə ekskursiyadan başlayaq. Azərbaycana ilk dəfə nə vaxt gəlmisiniz?*

- 1962-ci ildə mən Vladiqafqaz Ali Hərbi Məktəbinin kursantı olduğum üçün Hövsan kəndində və Jiloy (Çilov) adasında təcrübə keçmişdim. 1985-ci ildə Çukotkada xidmət edəndən sonra vəzifəmdə yüksəldim və yenidən Azərbaycana, Ələtə gəldim. Orada 19-cu Hava Hücumundan Müdafiə Ordusunda korpusun siyasi şöbəsinin rəisi vəzifəsində çalışmışam. Sonra çaxnaşma oldu və məni Lvova göndərdilər, sonra Tiflisdə yuxarı vəzifəyə göndərildim, Azərbaycanı, Gürcüstanı, Ermənistanı, Rusiyanın Həştərxan vilayəti və Stavropol diyarını və digər əraziləri əhatə edən Zaqafqaziya Hərbi Dairəsinin tərkibində ordunun hərbi şurasının üzvü idim. Mənə müxtəlif vəzifələr seçimi təklif olundu, lakin mən taleyimi Azərbaycanla bağlamağa qərar verdim. Müstəqil Azərbaycanın vətəndaşı oldum, bir neçə dəfə Milli Məclisin deputatı seçildim.

*- Siz Ermənistan-Azərbaycan münaqişəsinin yenicə alovlandığı vaxt burada idiniz. Bunun qarşısını almaq olardınmı?*

- Əlbəttə, mümkün idi. Bu münaqişənin Kreml tərəfindən qızışdırıldığı tamamilə aydındır! Mixail Qorbaçov başda olmaqla Sovet rəhbərliyi erməni millətçilərini açıq şəkildə təşviq edirdi. O vaxtkı DQMV-də ermənilər Sovet Ermənistanından daha yaxşı yaşayırdılar, hətta Azərbaycan üçün orta səviyyədən də! Amma "parçala, hökm sür" prinsipindən çıxış edən SSRİ rəhbərliyi o zaman həm Bakıya, həm də İrəvana eyni vaxtda təzyiq göstərə bilmək üçün Ermənistan-Azərbaycan münaqişəsinə start verdi. Sumqayıt hadisələri həmin təxribatın mühüm epizodu idi. Onları SSRİ DTK təşkil edirdi və onlara etnik erməni Eduard Qriqoryan rəhbərlik edirdi.

*- Birinci Qarabağ müharibəsi başlayanda Azərbaycan ordusu necə idi?*

- Ordu, o zaman yox idi. Orada nəinki təyyarələr, hətta kifayət qədər miqdarda pulemyotlar da yox idi. Yaxşı xatırlayıram ki, Moskvanın İrana satdığı təyyarələr o vaxt Azərbaycanda təmir olunurdu. Axırda bizdə qaldı. Amma bu az idi. Üstəlik, Əbülfəz Elçibəyin başçılıq etdiyi ölkənin o vaxtkı rəhbərliyinin də bu çətin vəziyyətdə nəyi və necə edəcəyini anlamaq tamamilə mümkün deyildi. Mən bunu o vaxt cəbhədəki vəziyyətin müzakirələrində şəxsən iştirak etmiş bir şəxs kimi deyirəm. Sonra belə görüşlərin birində çıxış edəndə Elçibəyə dedim ki, belə mübarizə aparmaq olmaz. Daxili Qoşunların, ordu batalyonlarının, könüllü dəstələrin təkbaşına döyüşməsi yanlış və məğlubiyyətlə doludur. Mən təkid etdim ki, vahid komandanlıq və qərar qəbuletmə mərkəzi yaradılmalıdır. Elçibəy sonra dedi ki, belə planlar var, amma hər şeyi tədricən etmək lazımdır. Mən cavab verdim ki, gözləməyə vaxtım yoxdur, bu qərar sadəcə vaxtı keçmiş deyil, həm də artıq yetişmiş qərardır. Mən o zaman çox təəccübləndim ki, belə aşkar şeylər dövlət başçısına izah edilməlidir. Əslində, mənim fikrimcə, Azərbaycanın o vaxt uğursuzluğunun səbəblərindən biri də bu idi - hakimiyyətin müharibə kimi böyük bir çağırışla üzləşmək üçün kifayət qədər biliyi, istedadı, bacarığı yox idi.

*- Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra hər şey kəskin şəkildə dəyişdimi?*

- Şübhəsiz ki. Və bunun çox sadə bir izahı var. Məsələ burasındadır ki, dünya səviyyəli siyasətçilər gələcək nəsillər, ölkənin gələcəyi, uzaqlara baxa bilmək bacarığı ilə rəhbərlik edir. Belə siyasətçilər Heydər Əliyev və Azərbaycanın indiki prezidenti İlham Əliyevdir. Mən bütün məsuliyyətlə bəyan edirəm ki, Heydər Əliyev Ermənistanla atəşkəs rejiminə razılıq verməklə müdrik hərəkət etdi. Azərbaycanın dövlətini, iqtisadiyyatını, ordusunu gücləndirmək üçün vaxt lazım idi. 1994-cü ilin mayında atəşkəs sazişi imzalandı və artıq 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında dünyanın 8 ölkəsini təmsil edən neft hasilatında ixtisaslaşmış 13 iri şirkət arasında "Əsrin müqaviləsi" imzalandı. O, həm karbohidrogen ehtiyatlarının həcminə, həm də təklif olunan investisiyaların ümumi həcminə görə ən böyük sazişlər siyahısına daxil olub. "Əsrin müqaviləsi" Azərbaycana çox şey verdi, o cümlədən güclü iqtisadiyyata və orduya malik güclü dövlət qurmaq üçün lazım olan vəsait. Heydər Əliyevin müdrikliyi məhz ondan ibarət idi ki, o, son dərəcə çətin vəziyyətdə olarkən buna necə nail olmağı başa düşürdü. Azərbaycanın 44 günlük müharibədə böyük qələbəsi isə məhz ona görə mümkün oldu ki, vaxtilə dövlətin və onun ordusunun qurulması, möhkəmlənməsi, möhkəmlənməsi üçün qüdrətli bünövrə yaradılmışdı.

*- Heydər Əliyevin hansı xarakterik xüsusiyyətini daha çox xatırlayırsınız?*

- Onun fenomenal yaddaşı var idi. Mən sizə konkret bir misal verəcəm. Mən belə bir hadisənin şahidi olmuşam ki, müxtəlif ölkələrdən üç diplomat Heydər Əliyevə hərəyə iki sual verdilər. O heç bir səhv etmədən onların hər birinə cavab verdi. Bunlar inanılmaz dərəcədə aydın, həcmli cavablar idi və sübut edirdi ki, Heydər Əliyeviç dövlətin həyatı haqqında bütün dolğun məlumatlara parlaq şəkildə sahibdir.

O, həm də olduqca təvazökar idi. Yadımdadır, bir dəfə Milli Məclisdə bizə anketlər verilirdi ki, deputatlar zəmanəmizin üç ən görkəmli siyasi xadiminin adını daxil etməli idilər. Mən anketdə yazdım - Heydər Əliyev, Fidel Kastro, Nelson Mandela. Bundan xəbər tutan Heydər Əliyev mənə dedi: "Birinci yerə Nelson Mandelanı qoymaq lazım idi".

*- 44 günlük müharibədə Azərbaycanın qələbəsini qeyd etdiniz. Rusiyanın həmin müharibədə Ermənistanı açıq şəkildə dəstəkləməyə çalışması riski var idimi?*

- Rusiyadan, onun Ukraynada açdığı müharibənin göstərdiyi kimi, hər şeyi gözləmək olar. Şübhəsiz ki, Ermənistan Rusiyanı Azərbaycana qarşı müharibəyə cəlb etməyi çox istərdi. Amma burada nəzərə almaq lazımdır ki, 44 günlük müharibə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisində baş verib. Ermənistan ərazisində bir gün belə həyata keçirilməyib. Bundan əlavə, dahi Heydər Əliyevin parlaq davamçısı, Azərbaycanın hazırkı prezidenti İlham Əliyev çox balanslaşdırılmış xarici siyasət yeritməklə belə riskləri neytrallaşdırmışdır. O, Rusiyanın 44 günlük müharibəyə müdaxilə etməyəcəyinə zəmanət ala bildi. O cümlədən, Türkiyə ilə hərbi-siyasi ittifaqı gücləndirməklə. İstənilən halda tarixi ədalət zəfər çaldı, Azərbaycan BMT-nin qətnamələrinin icrasına nail oldu. Bütün bunlar dahi Heydər Əliyevin başladığı və İlham Əliyevin tamamladığı böyük işin bəhrəsi idi.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb*

# "Fransa düşmən mövqeyindən çəkinmir"

"Fransanın xarici işlər naziri Ketrin Kolonnanın regiona səfərinin məqsədi, onun irəli sürdüyü təklifləri və İrəvanda sərsəmləmələrinin mahiyyəti siyasətlə məşğul olan, Fransanın çirkin mövqeyini qiymətləndirən hər bir kəsə əvvəlcədən məlum idi. Makron başda olmaqla, bu gün Fransanın hakim dairələri, parlamenti, əksər siyasətçiləri Ermənistanın dediyi ilə durub-oturur, təcavüzkarların çaldığı havaya oynayırlar. Bu, əslində, erməni sevgisindən, erməni xalqına hörmət və ehtiramdan qaynaqlanır." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədrinin sözlərinə görə, başlıca cəhət, iki təcavüzkar və riyakar xislətin mayalanması, uyğunlaşmasıdır.

"Ermənilər kimi fransızlar da qana hərisdilər, zalım və zülmkardılar, təcavüzkar və xəyanətkardılar. Taladıqları, viran qoyduqları şəhər və kəndlərin, ölkələrin, qətlə yetirdikləri insanların sayı-hesabı bilinmir və bəşəriyyətə qarşı bu saygısızlıq, beynəlxalq hüquqa hörmətsizlik bu gün də davam etməkdədir. Azərbaycan xalqı ATƏT-in Minsk Qrupuna həmsədrlik etdiyi 30 ilə yaxın bu dövrdə Fransanın hansı yolu tutduğunun, hansı məqsədlərə xidmət etdiyinin şahididir. Torpaqlarımız erməni təcavüzkarlarının tapdağı altında olduğu həmin illərdə BMT Təhlükəsizlik Şurasının erməni silahlı birləşmələrinin işğal etdikləri əraziləri qeyd-şərtsiz tərk etmələri haqqında dörd qətnaməsinin olmasına baxmayaraq, Fransa bir dəfə də olsun Azərbaycanın haqlı tələbini dilə gətirmədi, əksinə, təcavüzkarı müdafiə etdi, faşistləri dəstəklədi. Biz bu çirkin mövqeyi 44 günlük müharibə günlərində bir daha aydın gördük və həmin dövrdə Fransa prezidenti Makron, bu ölkənin parlamenti, siyasi dairələri Azərbaycanı haqlı mübarizədən, torpaqları azad etməkdən çəkindirmək üçün hər cür iyrənc üsullara, təsir vasitələrinə əl atdılar. Sonrakı illərdə və bu günə kimi Fransa Azərbaycana qarşı düşmən, Ermənistana dost və qardaş mövqeyindədir. Belə bir şəraitdə Ketrin Kolonnanın Azərbaycana səfər etməsi yaxşı heç nə vəd edə bilməzdi və belə də oldu.



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin görüş zamanı səsləndirdiyi ifadələrdən bir daha aydın oldu ki, fransalı diplomat Azərbaycana heç də iki ölkə arasında sülhü, əminamanlığı bərpa etmək, müəyyən məsələlərə aydınlıq gətirmək üçün deyil, əslində Ermənistanı müdafiə etmək üçün gəlmişdir. Azərbaycan Prezidenti konkret olaraq bildirdi ki, Ermənistan 44 günlük müharibədən sonra üzərinə düşən öhdəlikləri yerinə yetirmir, 10 noyabr Bəyanatının tələblərinə əməl etmir. Azərbaycanla Naxçıvan arasında dəhlizin yaradılmasına imkan vermir. Silahlı qüvvələrini ərazilərimizdən çıxarmır, Laçın yolundan humanitar məqsədlər üçün deyil, silah-sursat daşımaq, terrorçuları yerləşdirmək məqsədi ilə istifadə edir, sərhəddə təxribatlar törədir. Əlbəttə bütün bunlara görə Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması vacib idi və bu ölkəmizin suveren hüquqlarının qorunması, dövlətimizin təhlükəsizliyinin təmin olunması üçün əhəmiyyətlidir.

Çox qəribədir və diplomata yaraşmayan haldır ki, Ketrin Kolonna Bakıdakı mətbuat konfransında bəzi neytral və müsbət fikirlər söyləməsinə baxmayaraq Ermənistanda tamamilə əks fikirlər səsləndirmişdir. O, "Fransa Dağlıq Qarabağ erməni əhalisinin toxunulmazlıq hüququnu, öz tarixini, mədəniyyətini qoruyub saxlamağı təmin edəcək istənilən qərarı dəstəkləməyə hazırdır. Bu, onların müstəsna hüququdur", deyə erməniləri yenidən mübarizəyə səsləmişdir. Xanım Ketrin başa düşmür ki, Qarabağda yaşayan ermənilərin hüquqlarını heç kim əlindən almamışdır. Ancaq onların silahlanmaq, təcavüz etmək, dinc sakinləri qətlə yetirmək, terror törətmək əməllərinə qarşı mübarizə aparılır. Heç kim bir ovuc erməninin müstəqillik iddialarını, silahlanmaq təşəbbüsünü, vətəndaşı olduğu dövlətə qarşı müharibə etmək istəyini qəbul edə bilməz. Diplomat Ketrin hələ bilmir ki, Azərbaycan onun üçün daha əvvəlki Azərbaycan, ya da Şimali Afrika ölkəsi deyil. Azərbaycan mübarizələrdə bərikimiş, qətiyyətli, müdrik Prezidenti, Ali Baş Komandanı, mətanətli və güclü ordusu, sədaqətli, döyüşkən xalqı olan bir dövlətdir. Onunla diktə, zor yolu ilə danışmaq olmaz və bunu nəinki Fransa, ermənipərəst bütün ölkələr bilməlidirlər", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# İkinci, yoxsa neçənci cəhd?

## Vaşinqton-Paris-Moskva üçlüyü yenidən iş başında



**Azərbaycanın sülh təşəbbüsləri davam edir, çağırışları müxtəlif platformalardan səsləndirilir. Amma 44 günlük müharibədə ağır məğlubiyyətə uğrayan Ermənistan isə "ipini" başqasının əlinə verdiyi üçün öz fikirlərini sərbəst şəkildə ifadə etməkdə zorlanır. Bu səbəbdən də təkliflərə ya gec reaksiya verir, ya da cavab addımlarında qeyri-müəyyənlik özünü açıq şəkildə göstərir. Bir sözlə, Ermənistan sülhə gəlməkdə çətinlik yaşayır, onu sülhdən imtina etməyə vadar edirlər. Gah Rusiyanın dediyi ilə oturub-durur, gah Fransanın iftirası ilə Azərbaycana qarşı hiylələr işlədir, gah da Amerikadan göndərilən komandalara müntəzir dayanır. Bir sözlə müstəqil olmayan Ermənistan ona uzanan sülh əlini tutmaq üçün də "ağa"larından ismarıc gözləyir.**

2022-ci ilin sonuna qədər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanacağı gözlənilirdi. Rəsmi Bakının hazırladığı sənəd o qədər tutarlı, inkaredilməz, heç bir düzəliş və əlavələrə ehtiyacı olmayan sənəd idi ki, İrəvanın bundan imtina edəcəyi, yaxud kimlərləsə istişarə edəcəyi gözlənilmirdi. Amma bu baş verdi, Ermənistan ötən ilin sonuna qədər də sülhə gəlmədi. 2023-cü ilin artıq beşinci ayıdır, İrəvan yenə okeanın o tayına boylanmaqdadır. Buna qədər isə Fransanın xarici işlər naziri regiona səfər etdi. Bakıda bir, İrəvanda isə tam fərqli fikirlər söylədi. Bakıda məsələyə loyal münasibəti ilə diqqət cəlb edən Kolonna İrəvanda tam tərsinə, ermənilərə sərf edən ritorikada çıxış etdi. İşğalı da, se-





paratçılığı da, Ermənistanın Azərbaycana təcavüzünü də dəstəklədi, bir sözlə fransalı nazir ermənilik etdi.

İrəvanda, Bakıda və Tbilisidə keçirdiyi görüşlərdə Kolonna dondan-dona girməyi bacardı. Fransanın XİN başçısı səfər marşrutunun bilərəkdən Azərbaycandan başlamasının da özəl səbəbi var. Bir anlığa diqət edin, əgər Kolonna əvvəlcə Ermənistana, sonra Azərbaycana səfər etsəydi  Yox, bunu edə bilməzdi, çünki, İrəvanda ermənilərlə görüşündə Azərbaycan haqqında dediklərinin cavabını Bakı ondan ala bilərdilər. Çıxılmaz duruma düşməsin deyə Kolonna səfərinə Azərbaycandan başladı ki, sonra Ermənistanda boş-boş danışa, erməniləri Fransanın "səmimiyyətinə" inandıra bilsin. O, həmçinin İstisu (Cermuk) şəhərində Aİ-nin Monitorinq Missiyasının qərargahına baş çəkdi. Qarabağdakı vəziyyəti müzakirə etdi. Rusiyanın Qarabağdakı sülhməramlı qüvvələrinin fəaliyyəti də müzakirə mövzularından oldu.

Fransanın xarici işlər nazirinin İrəvanla Bakı arasında tədricən pik həddə çatan gərginliyi azaltmağa çalışacağı barədə proqnozlar özünü doğrultmadı. Əslində burada təəccüblənəcək bir məsələ də yoxdur, çünki Fransanın XİN başçısının zatən fikri münaqişə tərəfləri arasında sülhyaratma deyil, bu müharibənin bundan sonra da davam etdirilməsidir.

Bakı dəfələrlə Fransanı Qarabağ məsələsində erməni tərəfini birtərəfli dəstəkləməkdə ittiham edib. Prezident İlham Əliyev qeyd edib ki, Qarabağ problemi Azərbaycanın daxili problemidir. Prezident İrəvanı Qarabağı Azərbaycanın bir hissəsi kimi rəsmən tanımağa çağırıb. Məhz bu səbəbdən də Katrin Kolonnanın Bakıda daha nədən danışacağını təsəvvür etmək çətin deyildi. İrəvanda isə fransalı nazir üçün daha asan oldu. Paris Ermənistanın demək olar ki, əsas Qərb himayədarı kimi özünü göstərir. Prezident Emmanuel Makron mütəmadi olaraq baş nazir Nikol Paşinyanla əlaqə saxlayır və demək olar ki, bütün məsələlərdə onunla razılaşır. Fransanın güc qurumları Ermənistanı ruhlandıran sənədləri davamlı olaraq qəbul edir. Düzdür, Azərbaycanla münaqişədə Ermənistana əməli fayda gətirmir. Məsələn, Fransa Senatının Laçın yolunda keçid məntəqəsinin yığışdırılması tələbi kimi. Bu "tələb" təkcə Fransa deyil, başqa yerlərdən də edilib.

Bu arada, Rusiya prezidenti ilə Ermənistanın baş naziri arasında telefon danışığı olub. Kremlin mətbuat xidməti bildirib ki, Vladimir Putin və Nikol Paşinyan Qarabağdakı vəziyyəti müzakirə edən zaman regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün praktiki problemlərin həllinə diqqət yetirdikləri bildirilir. Laçın yolu ətrafında başlanan söz-söhbətlər fonunda Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında fundamental razılaşmaların bütün spektrinə ciddi əməl olunmasının vacibliyi bir daha təsdiqlənib. Əgər Rusiya və Ermənistan liderləri müzakirələrdə daim üçtərəfli bəyanatın maddələrinə istinad etməyi lazım bilirlərsə, onda həmin maddələrdən birində də Zəngəzur dəhlizinin açılması barədə konkret cümlələrin yazıldığını görməmiş deyillər. Ermənilər daim ittiham dilində danışır, Azərbaycanın Bəyannamənin şərtlərinə əməl etmədiyi vurğulanır. Bəs Ermənistan necə, Bəyannamənin 9 bəndinin hansını yerinə yetirib? 4-cü və 9-cu bəndlər Ermənistan tərəfindən yerinə yetirilməsindən danışmağa dəyməz. Nə erməni ordusu Azərbaycan torpaqlarından çıxarılıb, nə də Şərqi Zəngəzurla Naxçıvanı birləşdirən yol açılıb. Belə olan halda, İrəvan Bakıdan Laçın yolunun amılmasını necə tələb, yaxud xahiş edə bilər?

Bu gün region ölkələrinin bütün diqqəti Vaşinqtona dikilib. ABŞ-ın Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan XİN başçılarının görüşü keçirilir. Daha dəqiq desək görüşün keçirilməsinə sayılı dəqiqələr qalıb. Nəzərə alsaq ki, aparılan danışıqların təfərrüatı barədə gec məlumat veriləcək, amma təxminən söhbətin nədən getdiyini, tərəflərin mövqelərini təxmin etmək bir o qədər də çətin deyil. Çünki görüşdən əvvəl həm Ceyhun Bayramov, həm də Ararat Mirzoyan ölkələrinin siyasət idarələrinin rəhbərləri kimi Vaşinqtonda deyəcəklərini artıq demişdilər. Qalanı isə təfərrüatdır.

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, ABŞ dövlət katibi Entoni Blinkenin dəvəti əsasında Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri çərçivəsində Azərbaycanla Ermənistan arasında "sülh sazişi" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub. Entoni Blinken əvvəlcə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşəcək, sonar isə A.Mirzoyanla üzbəüz oturacaq.

ABŞ dövlət katibi aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Antoni Blinken Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların əhəmiyyətini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin davam edəcəyini bildirib. ABŞ Dövlət katibi sülhün əldə edilməsinin mümkünlüyünə inandığını deyib və Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulmasına toxunub.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir, Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağın və münasibətlərin normallaşdırılmasının təşəbbüskarı məhz Azərbaycan olub. Bu xüsusda da Azərbaycan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip Ermənistana təklif edilib. Azərbaycan-Ermənistan sərhədində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar Prezident İlham Əliyev bildirib ki, bu məntəqənin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib.

Azərbaycan Prezidenti vurğulayıb ki, məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir.

Telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacağı qeyd edilib.

Bu gün dünya gücləri Cənubi Qafqazda




fəallıqlarını artırıblar. İlk baxışdan Qərb Rusiyanın Ukrayna müharibəsində "ilişdiyini" nəzərə alıb bölgədə özlərinə yer etməyə, nəticədə Rusiyanı sıxışdırıb çıxarmağa çalışırlar. ABŞ kimi Fransa da aktivləşib. Fransanın xarici işlər naziri Ketrin Kolonna Cənubi Qafqaz ölkələrinə səfəri də buna sübutdur. Azərbaycan Dövlət Sərhəd Xidmətinin Ermənistanla sərhəddə Laçın yolunda nəzarət-buraxılış məntəqəsi quraşdırmasından sonra bölgədə vəziyyət gərginləşib. Bakıda bu qərar təhlükəsizlik təhdidi, eləcə də Ermənistan tərəfinin yoldan qanunsuz istifadə etməsi ilə izah edilib. İrəvan təkid edir ki, keçid məntəqəsinin quraşdırılması 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanatın tələblərinə ziddir.

Beləliklə, Azərbaycan və Ermənistanın məsələyə baxışında fərqlər çox olsa da, həqiqət birdir. Azərbaycanın sərhəd-keçid məntəqəsi quraşdırdığı ərazilər də, Bakı tərəfindən müzakirə predmeti olmaqdan çıxarılan Qarabağ da Azərbaycanın suveren ərazisidir, dünya birliyi hər iki ərazini bizim qanuni torpaqlarımız hesab edir. Ona görə də öz torpağında, suveren ərazilərində istənilən bir işin görülməsi Azərbaycanın heç kimlə müzakirə etmədiyi məsələdir. Nə Paris, nə Moskva, nə də Vaşinqton Azərbaycan-Ermənistan müzakirələrində vasitəçi olmağa layiq deyillər. Çünki, 1998-ci ildən 2020-ci ilə qədər ATƏT-in Minsk qrupunun həmsədrləri kimi heç bir iş görə, işğalçı ilə işğal olunan ölkələri bir-birindən ayıra bilmədilər. Bu günkü cəhdlər isə prosesi yalnız ləngitməyə yönəlib.

***V.VƏLİYEV***



# 100 il Ulu Öndər Heydər Əliyev

Vətəni ucaltdın yer kürəsində
Şan-şöhrət yazıldı həyat yoluna.
Hikmət, öyüd vardı hər bir sözündə
Bu xalqı tapşırdın İlham oğluna.

Ulu Öndər Heydər. Ey müdrik Dahi!
Bahar nəfəsiylə dünyaya gəldin.
Bu xalqa bəxş etdi Səni İlahi,
Düşmənin bağrını nəştərlə dəldin.

Xalqın dar gününün dayağı oldun
Ömrü fəda etdin xalqın yolunda.
Zülmət gecələrin mayağı oldun
Sənə həsəd etdi sağın, solun da.





***Mürsəlova Ofelya Mürsəl qızı ADPU-nun Pedaqoqika kafedrasının sabiq baş müəllimi***

Üç rəngli bayrağı Azərbaycanın
Xəzərin qoynunda göy zirvəsində.
Ali Baş Komandan, rəhbər İlhamın
Nəhəng şücaəti yer kürəsində.

İşğaldan azaddır artıq Qarabağ
Torpağı suvardı şəhid qanları.
Qəlblərdən silinməz heç zaman bu dağ
Qurban getdi igidlərin canları.

Dühanla ucaldı Vətən torpağı!
Hər zaman Sən xalqın arasındasan!
Əzminlə xalqının firavan çağı
100 illər ötsə də sırasındasan!

# “Ermənilərin həyasızlığı və savadsızlığı heyrət doğurur”

**“Xankəndi-Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması, yaxud, qurulmaması haqqında 10 noyabr bəyanatının 6-cı bəndində heç bir müddəa yoxdur. Bu səbəbdən ermənilərin bəyanatın 6-cı bəndinin tələblərinin pozulması barədə iddiaları son dərəcə əsassızdır”. SİA xəbər verir ki, bunu siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.**

Onun sözlərinə görə, ermənilərin həyasızlığı və savadsızlığı heyrət doğurur: ”Biz onların nə qədər həyasız, şər-böhtan söyləyən olduqlarını yaxşı bilirdik və buna qətiyyən təəccüblənmədik. Ancaq bu qədər savadsız olmaları qətiyyən gözlənilən deyildi. Fikir verin, neçə ildir ki, N.Paşinyan ”Laçın koridoru”nun xüsusi rejimindən danışır. İddia edir ki, bu yolda nəzarət-buraxılış məntəqəsi qurula bilməz. Onun düşüncəsinə görə ermənilər hər iki istiqamətdə maniəsiz hərəkət etməli və heç bir yoxlamaya məruz qalmamalıdırlar.



Baxmayaraq ki, ”maneəsiz hərəkət” 10 noyabr bəyanatının 9-cu bəndinə görə ”Zəngəzur dəhlizi”ndə nəzərdə tutulub. Bunu nəzərə almaq istəməyən ermənilər dəhlizdə nəzarət-buraxılış məntəqəsi qurmaqda qərarlıdırlar. Laçın yolu ilə bağlı ”maneəsiz hərəkət” tələbi 10 noyabr bəyanatında yer almadığı və bu yolda nəzarət-buraxılış məntəqəsinin qurulmasının bəyanata zidd olmadığı halda ermənilər yenə ”şivən” qopararaq bütün dünyanı üstümüzə qaldırmağa çalışırlar. Bu cür davranışa nə qədər adət etmiş olsaq da ermənilərin bu davranışı ikrah doğurmaya bilmir”.

”Sizcə, bundan sonra Xankəndidəki separatçılara qarşı münasibət necə olacaq” sualına cavabında A.Səmədov bildirib ki, Xankəndidəki separatçılara münasibət barədə Azərbaycan Prezidenti bu günlərdə açıq danışıb: ”Bəyan edib ki, Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul edəcəklər, ya da ölkəmizin ərazisini tərk edib gedəcəklər. Hələlik görünən odur ki, ermənilərin ”liderləri” bu reallığı qəbul etmək istəmirlər və müqavimət göstərməyə hazırlaşırlar. Ancaq bu cəhdlər əbəsdir. Heç kim Qarabağda Azərbaycanın suverenliyinin təmin olunmasının qarşısını ala bilməz. Nə qədər gec deyil, ermənilər ağıllarını başlarına yığmalı və Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Əks halda özlərinə yeni yaşayış yeri axtarmaq məcburiyyətində qalacaqlar. Sadə ermənilər bir şeyi nəzərə almalıdırlar ki, onları müqavimətə çağıran Araik Arutyunyanın və ətrafındakı cinayətkar dəstənin kifayət qədər pulları, həm Ermənistanda, həm də digər yerlərdə evləri var. Onlar heç bir çətinlik çəkmədən bolluq içərisində yaşamağa davam edəcəklər. Bu cür avantürist ”liderlərin” əməllərinin əziyyətini isə sadə ermənilər çəkəcəklər. Yeri gəlmişkən, sərhəddə nəzarət-buraxılış məntəqəsinin qurulması ermənilərin vətəndaşlıq barədə seçim etməsini sürətləndirəcək”.

***GÜLYANƏ***

# “Nar” gənclər üçün yeni iş imkanları yaratmağa davam edir

“Nar” ADA Universitetində təşkil olunan 11-ci karyera sərgisində iştirak edib. Artıq ənənə halını almış sərginin əsas məqsədi tələbə və məzunları bir araya toplayaraq onların işəgötürənlərlə peşəkar əlaqələr qurmasına dəstək olmaq, eləcə də işəgötürənlərin bacarıqlı kadr axtarışlarını asanlaşdırmaqdır.




Karyera sərgisi zamanı ADA-nın 1500-ə yaxın tələbə və məzunu şirkət və qurumların təqdim etdiyi müxtəlif karyera fürsətləri barədə ətraflı məlumat əldə ediblər.”Nar”ın İnsan resursları komandası da öz növbəsində gələcəyin mütəxəssislərinə peşələrinin iş mühitindəki real tələbləri barədə məlumat verib. Həmçinin şirkətin əməkdaşları gələcəkdə karyerasını telekommunikasiya sahəsində davam etdirmək istəyən gənclərə cari vakansiyalar barədə məlumat verərək dəstək olublar. Eyni zamanda mobil operatorun təcrübə və təqaüd proqramından yararlanmaq istəyən tələbələrin sualları cavablandırılıb.




Qeyd edək ki, təhsilin inkişafına dəstək ”Nar” sosial fəaliyyətinin əsas istiqamətlərindəndir. Mobil operatorun bu sahədə gördüyü genişmiqyaslı layihələri ilə buradan tanış ola bilərsiniz.

”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# Aslanqeyrətlilər, tülküqeyrətlilər...

**MƏTANƏT**

**Yaşadığımız zamanın müxtəlif zaman kəsiklərində aslanqeyrətlilərlə də, tülküqeyrətlilərlə də dəfələrlə rastlaşmışıq. Qonşuluqda, bir az ondan o tərəfdə, bir qədər ondan uzaqda çox rastlaşmışıq. Lakin İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında aslanın da, tülkünün də tam başqa mənzərəsi ilə qarşılaşdıq. Gördük ki, həqiqətən də Azərbaycana məxsus deyimdəki kimi, aslanın dişisi, erkəyi olmaz. Bunu türk idmançı qızların simasında, türk bayrağını göylərə qaldırmalarında, Milli Marşı səsləndirmələrində gördük. Və onu da gördük ki, tülkü tülkülüyündə qalır. Bunu isə bayrağımızı yandıran erməninin simasında gördük.**

Türkiyəli idmançı- aslanqeyrətli qızlar Azərbaycana qarşı bu mənzərədən təsirləndilər, qələbələrini Azərbaycana həsr etdilər. Orada-Ermənistanda isə bayrağımızı yandıran tülküqeyrətliyə, gözün üstə qaşın var, deyən olmadi. Bu, ümumilikdə aslanqeyrətli, tülküqeyrətli məsələsini ortaya qoymurmu?

Əlbəttə qoyur. Türkün aslanqeyrətli qızlarının qeyrətini ortaya qoyur, erməninsə tülküqeyrətli bayraq yandıranının.

Əslində qarşılaşdığımız mənzərə o qədər də gözlənilməz deyildi. Çünki biz ermənilərin nələrini görməmişik... Bir də o mənada gözlənilən idi ki, torpaqlarımızdan it kimi qovulan, başına dəfələrlə dəmir yumruq endirilən erməni başqa cür hərəkət də edə bilməzdi. Dara düşəndə bütün xislətini tam mənası ilə ortaya qoyan qonşuluqdan kənar olmuşların bu dəfə tülkü qeyrəti nümayiş etdirmələri o qədər də təəccüb doğuran deyildi.

Yanırlar, ona görə də yandırırlar. Düzgün yanaşma deyilmi? Hələ çox yanacaqlar, elə olacaq ki, yandırmağa bir şey tapmayıb özlərini yandıracaqlar. Buna şübhə ola bilməz.

Yanmadılarmı? Aprelin 28-də ölkəmizin Prezidentinin İrəvanda qələbələrini Azərbaycana həsr etmiş idmançılarla görüşməsinə yanmadılarmı? Cansu Bektaş, Qamze Altun və Nuray Güngörün İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycan və Türkiyə arasında sarsılmaz qardaşlıq münasibətlərinin təzahürü kimi Azərbaycana həsr etdiklərinə görə ”Tərəqqi” medalı ilə təltif edilmələri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı onları alovlandırmadımı? İki dövlətin bir millətinin uğurlarına, həm də bir-birinə dəstək olan uğurlarına bağırları çatlamadımı? Həmin görüşdə olan söhbətləri tülküxislətli və tülküqeyrətlilər hərf-hərf oxuyublar.

Cənab Prezidentin ”Siz Ermənistanda keçirilmiş Avropa çempionatında şanlı Türk Bayrağını göylərə qaldırmısınız, Milli Marşı səsləndirmisiniz. Bu münasibətlə sizi bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Eyni zamanda, bu qələbəni Azərbaycana həsr etmisiniz. Bu, bizi xüsusilə sevindirən bir haldır. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan - iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir. Biz olmayan yerdə siz varsınız, siz olmayan yerdə biz varıq. Biz birik, biz müttəfiqik, biz qardaşıq.

Sizin qələbənizin xüsusi önəmi var. Siz gənc idmançılarsınız, sizin həyatınızda hələ neçə-neçə qələbələr olacaq, amma bu qələbənin özəlliyi var. Çünki Azərbaycana qarşı, bizim milli rəmz olan Bayrağımıza qarşı hörmətsizlik olunan zaman siz ədaləti bərpa etmisiniz. Türk Bayrağının orada qaldırılması ədaləti bərpa etmək idi. Türkiyə dövlətinin Milli Marşının səsləndirilməsi bütün orada oturanları ayağa qaldırdı. Bizim Bayrağımızı yandırdılar, amma bizim üçün öz Bayrağımız qədər əziz olan Türk Bayrağı orada dalğalandı. Bunu da siz etmisiniz, gözəl gənclər, qardaş ölkənin nümayəndələri” cümlələri tülküqeyrətlilər üçün ölümdən betər olub.

Olsun da. Ona görə ki, yarış bitdi, hər kəs ölkəsinə qayıtdı. Lakin tarixin bir səhifəsinə aslanqeyrətlilərlə və tülküqeyrətlilərlə bağlı bir səhifə yazıldı. Hər zaman vərəqlənəcək və qiyməti veriləcək səhifə...

# 70 il 1 may, sonra...

**Biz özümüzü dərk edəndən əvvəl valideynlərimiz əlimizdən tutub 1 may "mayovka"sına aparırdılar, sonra elə ki, məktəbə getdik, düz birinci sinifdən sonuncu sinfədək bütün məktəblilər hökmən 1 mayda- Beynəlxalq Zəhmətkeşlər Günündə keçirilən tədbirdə iştirak etməli idilər. Belə ki, may ayına bir ay qalmış bu böyük tədbirə hazırlıqlar başlanırdı. Hər gün dərs saatlarından kəsib bizi parada hazırlaşdırırdılar. Hələ üstəlik günün ikinci yarısında da əlavə olaraq məktəbə gedirdik ki, "mayovka"ya lazımi şəkildə hazırlaşa bilək. Hələ yadımdadır, may üçün xüsusi formalar da tikdirirdik ki, bunların da xərcini valideynlərimiz çəkməli olurdular.**

1 mayı bizə belə başa salmışdılar ki, dünyada zəhmətkeşlərin həmrəylik bayramıdır. SSRİ də humanist, zəhmətkeşlərin tərəfində olduğu üçün bu bayramın keçirilməsi mütləqdir. Azərbaycanın bütün şəhər və rayonlarında keçirilən bu bayrama kəndlərdən də məktəblilər, zəhmətkeşlər qatılırdılar. Hər bir idarə, müəssisə, təşkilat bu paradda öz məşğulluğunu, bacarığını, məhsullarını nümayiş etdirirdi. 1920-ci ildən 1990-cı ilədək 1 may Azərbaycanda rəsmi bayram günü kimi qeyd olunub.




## Azərbaycan Xalq Cümhuriyyəti və 1 may

Bəli, bizə sovet quruluşunun "humanistli"yi kimi təqdim olunan 1 mayı, əslində 1920-ci ildən bir il əvvəl, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti də böyük təntənə ilə qeyd etmişdi. Çünki bu bayram dünyanın qeyd etdiyi bir bayram idi. Tarixi dünya zəhmətkeşləri ilə bağlı olan bir bayram idi. Bu proletar bayramın əsas məqsədi cüzi maaş müqabilində insanların 15-16 saata qədər gündəlik iş rejiminə məhkum olunmasının qarşısını almaq, uşaq əməyinə qarşı aparılan sinfi mübarizəni sürətləndirmək və sosial sığorta ilə təmin edilmək idi.

AXC humanistlik prinsipləri əsasında yaradılmış bir dövlət olduğundan bu dövlətin demokratik ruhlu nümayəndələri digər zəruri məsələlər kimi, əhalinin zəhmətinin də dəyərləndirilməsinin qayğısına qalmış və bu bayramın qeyd edilməsini zəruri bilmişlər.

Bəli, insanların rifahına, yaxşı yaşamasına, onların suverenliyinin, müstəqilliyinin qorunub saxlanmasına hesablanmış bu dövlət özünü humanist adlandıranların işğalçılıq planlarının başında dayanırdı. Ona görə də cəmi 23 ay yaşaya bildi. Və bütün humanist addımları, insan rifahına və insanlığa hesablanmış proqramı ilə birlikdə tarixin arxivinə gömüldü.

SSRİ-yə görə gömüldü. Xalqımız üçünsə nə vaxtsa milli azadlıq hərəkatının yenidən təzahür etməsi üçün bir mənbə oldu. O mənbə ki, zamanı çatanda orada yarımçıq qalan arzularla bu xalq yenidən ayağa qalxacaq və müstəqilliyinin bərpası üçün mübarizəyə başlayacaqdı. AXC-nin demokratik ənənələrini yeni quracaqları dövlətdə yenidən canlandıracaqdılar. Buna isə hələ ki, qarşıda 70 illik bir zaman var idi...




## 1 mayın tarixinə qısa nəzər...

20-ci əsrin əvvəllərində Avropada ən fəal kommunist hərəkatı üzvlərindən hesab olunan, "sosialist Bacı" adı ilə tanınan almaniyalı Roza Lüksemburqun 1894-cü ilin fevralında Parisdə "May bayramı necə yarandı?" adlı tarixi məqaləsi dərc olunur. Məqalədə deyilirdi ki, azad düşüncəli insanların 8 saatlıq iş rejimi tələb etməsi ilk dəfə Avstraliyada ortaya çıxıb. Nə qədər ki, işçilərin burjuaziya və hakim sinfə qarşı mübarizəsi davam edir, bu etirazlar da davam edəcək. Və müəllif inandığını vurğulayırdı ki, illər sonra dünyanın dörd bir yanında işçi sinfi öz azadlığına qovuşanda "1 May" həqiqətən də zəhmətkeşlərin bayramı olacaq.

Avstraliyada yerli işçilər 1856-cı ildə artıq toplantı və əyləncə ilə əlaqədar səkkiz saatlıq iş gününün lehinə nümayiş olaraq bir günlük özlərini tamamilə işdən azad etməyi qərara aldılar. Bu bayram günü 21 aprelə təyin edildi. Öncə avstraliyalı işçilər yalnız bircə dəfə nümayiş keçirməyi düşünürdülər. Ancaq bu ilk bayram nümayişi avstraliyalı proletar kütlələrdə elə təsirli iz buraxdı, elə bir canlanma yaratdı ki, bayramın hər il təkrarlanmasına qərar verildi.

Bu qərar gerçəkdən, işçi kütlələrə kütləvi işə çıxmamaq kimi öz güclərinə inam və cəsarəti verdi. Zavod, fabrik və emalatxanaların əbədi qullarına öz daxili birliklərinə baxış zəminində cəsarət, gücü bəxş etdi.

Beləcə, proletar bayramı düşüncəsi tez bir zamanda mənimsəndi, Avstraliyanı aşıb başqa ölkələrə yayıldı, ta ki o, bütün proletar dünyasını fəth etdi. Avstraliyalı əməkçilərin bu nümunəsini daha sonra amerikalılar təkrarladı.

1866-cı ildə Amerikan işçiləri Baltimorda toplandıqları konqresdə günlük iş vaxtının 8 saata endirilməsi tələblərini ciddi şəkildə irəli sürmək haqda qərar qəbul etdilər. 1884-cü ildə Çikaqoda toplanan Amerika İşçi Federasiyası və Beynəlxalq İşçilər Birliyi "8 saatlıq iş günü"nü burjuaziyaya zorla qəbul etdirmək haqda qərar qəbul etdi. Bu qərara görə 2 il sonra - 1 may 1886-cı ildə 8 saatlıq iş günü üçün boykotlar ediləcək və aksiyalar keçirəcəkdilər. 1 may 1886-cı ildə demək olar ki, bütün sənaye mərkəzlərində - Nyu-York, Çikaqo, Filadelfiya, Baltimorda... 200 mindən çox işçi boykota başladı. Çikaqoda 80 min işçi haqları olan "8 saatlıq iş günü" tələbi altında sıx sıralarla möhtəşəm yürüş keçirdi.

Avropada da işçi hərəkatı güclü inkişaf etdi və canlandı. 1889-cu ilin iyulunda Parisdə toplanan II İnternasionalın 1-ci Konqresində 1 May tarixi dünya zəhmətkeşlərinin birlik, mübarizə günü olaraq qəbul edildi. Hər ilin 1 may tarixini mitinqlər, aksiyalar və boykotlarla qeyd etmək qərarı alındı. Beləliklə, bu hərəkat özünün güc ifadəsini İşçilərin Beynəlmiləl Konqresi ilə tapdı. Sözü gedən Konqresə 400 nümayəndə toplanmışdı. Öncə 8 saatlıq iş günü tələbi haqda qərar verildi.

Fransız Həmkarlar İttifaqının üzvü, bordolu fəhlə Lavign təklif etdi ki, hər bir ölkənin zəhmətkeşləri Əmək Bayramı Günü adı altında bu tələbi ortaya qoysunlar. Burada amerikalı işçilərin nümayəndəsi diqqəti 1890-cı ilin 1 Mayı ilə bağlı yoldaşlarının eyni qərarına yönəltdi, beləliklə Konqres həmin günü proletariatın bayram günü kimi müəyyən etdi.

Dünyanı bürüyən sinfi mübarizə Rusiyada bir qədər də kəskin xarakter almışdı. Burada baş qaldıran fəhlə-kəndli çıxışları daha fundamental xarakter daşıyırdı.

Rusiya proletar kütlələrinin daha güclü ittifaqlarda birləşməsi və kommunist-bolşevik partiyası sıralarında güclü siyasi fəaliyyəti sonradan Böyük Oktyabr İnqilabına və nəhayətdə Leninin başçılığı ilə tarixdə sosialist sistemə dayanan ilk fəhlə-kəndli dövlətinin - SSRİ-nin yaradılmasına gətirib çıxardı. Sovet İttifaqında bu bayram dünyada ən möhtəşəm səviyyədə keçirilirdi.

## 1 may bayramı Azərbaycanda nə üçün ləğv edildi?

Maraqlıdır, Azərbaycan zəhmətkeşləri zəhmətkeş deyildilər, bu günü qeyd etməyə haqları yox idi? Bəs görəsən səbəb nə idi ki, 1 may bayramı Azərbaycan ləğv edildi?

Bəli, 1992-ci ildə bu bayram ləğv edildi. Həmin ilin oktyabrında müstəqil Azərbaycanın bayramları haqqında qanun qəbul edilərkən "1 May"ın sinfi ideologiyanı daşıyan şəxslərin təşəbbüsü ilə yaradıldığı əsas gətirilərək bu sıraya daxil edilmədi. Azərbaycanın keçmiş prezidenti Əbülfəz Elçibəyin göstərişi ilə "1 May"ın rəsmi səviyyədə qeyd edilməsinə son qoyuldu.

Ancaq əslində ləğv edilməməli idi. Çünki bu bayram sovet dövlətinin prinsipi əsasında yaranmamışdı. SSRİ-dən öncə yuxarıda qeyd etdiyimiz ölkələrdə 8 saatlıq iş rejiminin təməli qoyulmuşdu. Rusiya isə illər sonra həmin ölkələrlə həmrəy olaraq bu qənaətə gəlmişdir. Belə olan təqdirdə Azərbaycanda bu bayramın ləğv edilməsinə lüzum yox idi.

1990-cı illərin əvvəllərinə bu günün prizmasından baxanda o dövrdə həqiqətən də maraqlı nüanslarla qarşılaşmağımızı xatırlamamaq mümkün deyil. Həmin dövrdə hakimiyyətdə olanlar İkinci Cahan Müharibəsində iştirak edən azərbaycanlılara qarşı da birmənalı fikirdə deyildilər. 9 may-Qələbə gününün ləğv olunmasını, bu tarixin bizimlə əlaqəsi olmadığını əsaslandırmağa çalışırdılar. Lakin onların tezliklə ölkənin siyasi aləmindən uzaqlaşdırılması və Ümummilli Liderimizin hakimiyyətə gəlməsi ilə bu tarixi gün qoruna bildi. Ulu Öndər vurğuladı ki, İkinci Cahan Müharibəsi yaşanan tarixdir, həmin müharibədə minlərlə azərbaycanlı həlak olub, sağlamlığını itirib. Beləliklə bu tarix hər zaman anılmalıdır. Böyük şəxsiyyət bu addımı ilə minlərlə azərbaycanlı ailənin müharibədə itirdiyi əzizlərinə, evinə sağlamlıq imkanları məhdudlaşmış olaraq qayıdan övladlarına sayğısı və qayğısının olduğunu sərgilərdi.

Yaxşı ki, AXC-Müsavat cütlüyü nümayəndələrinin hakimiyyət illəri uzun sürmədi, yoxsa daha hansı tarixlərin üzərindən qara xətlər çəkiləcəkdi... Torpaqlarımızın 20 faizdən artıq hissəsinin ermənilərə satılmasının ağrısını 30 il yaşadığımız kimi, bu kimi tarixi və əlamətdar günlərin də nə üçün bayramlarımızın siyahısından çıxacağına təəssüf edəcəkdik.

## Yaxşı olar ki...

Yaşı 40-dan artıq olan insanların gözəl xatirələrlə xatırladığı 1 may, sözün həqiqi mənasında, yaxşı bir bayram idi. İldə bir dəfə bütün idarə, müəssisə və təşkilatların, məktəblərin, məktəbdənkənar müəssisələrin sanki hesabat verdiyi bir gün-bayram idi. Hər kəs burada bacarığını, qabiliyyətini, öyrəndiyini, əldə etdiyini ortaya qoya, sərgiləyə bilirdi. Uzun illər dünyanın zəhmətkeş insanlarının mücadiləsindən sonra 15-16 saatlıq iş rejiminin 8 saata endirilməsini bayram etməyin əslində nəyi pisdir ki?.. Bu yolda yüzlərlə insan həbs edilmiş, gecə ilə aradan götürülmüş, adı qara siyahıya salınmışdı. Sonda isə bütün bəşəriyyətə nümunə olan bir iş ortaya çıxmışdı.

1 may bayram bu gün dünyanın əksər ölkələrində müxtəlif adlar altında keçirilməkdədir Bu bayram insanlığın bayramıdır, desəm, yanılmaram. Çünki bu bayram tamamilə insanlığa məxsus, insan hüquq və azadlığı ilə əlaqədar bayram idi. Çox yaxşı olardı ki, bu bayram ölkəmizdə yenidən bərpa olunsun. Bu, həm də bayramın sovet ittifaqına bağlı olması fikrini alt-üst etmiş olar.

1 may- gözəl xatirələrlə tarixin o üzündə qoyduğumuz, bu gün isə bizim üçün əlçatmaz olan bir gün, bir bayramdır. Uzun illər ölkəmizdə kimlərinsə iştirakçısı, kimlərinsə sadəcə kənardan dayanıb seyr etdiyi, kimlərinsə istirahəti olan bu gün unutmayaq ki, bir zamanlar 15-16 saat işləyib əldən düşən, istirahətin, ailəyə, uşağa, özünə vaxt ayırmağın nə olduğunu bilməyən insanlardan bizlərə bir töhfədir. İllərin mübarizəsindən sonra 8 saata endirilən və bu gün azaldılmış iş vaxtı ilə işləyənlərin o töhfəni zaman-zaman yaşatması bir borc deyilmi?..

***Mətanət Məmmədova***

# Kədərli Makron və iki dovşan: Fransanın niyyəti puç olur

**ABŞ Ermənistanı Azərbaycanla yekun sülh müqaviləsini imzalamağa sövq edir. Daha doğrusu, rəsmi Vaşinqtonun bölgə ilə bağlı strateji və qısaperspektivli planının tərkib hissəsi bu ayın sonunadək sözügedən müqavilənin ilkin variantının təsdiqlənməsidir.**

Birləşmiş Ştatların dövlət katibinin köməkçisinin müavini Erika Olson bu yaxınlarda Bakıda və İrəvanda səfərdə olarkən məhz bəhs etdiyimiz sənədin ilkin variantını gətirmişdi.

ABŞ-ın Cənubi Qafqaz bölgəsində dayanıqlı sülhlə stabilliyin bərqərar olunması istiqamətində rəqibləri az deyil. Əsas geosiyasi müqavimət mərkəzləri ənənəvi olaraq Rusiya Federasiyası və İran sayılır, lakin onların sırasına, ilk baxışdan nə qədər paradoksal görünsə də, Fransa da qatılıb.



Məhz Fransa indi Ermənistanla "əlahiddə və çox sıx əlaqələr" hesabına regional geosiyasi oyunçular arasında ağırçəkili fiqura çevrilməyi planlaşdırır.

Rusiya Sülhməramlı Qüvvələrinin yeni komandanı, general-polkovnik Aleksandr Lentsovun bu gün İrəvana yollanaraq orada Ermənistanın müdafiə naziri Suren Papikyanla görüşməsinin səbəblərindən biri də məhz Moskvanın "kənar oyunçuların destruktiv fəaliyyəti" ilə bağlı erməniləri xəbərdar etməkdir.

Fransanın xarici işlər naziri Katrin Kolonnanın Bakıdan sonra səfər etdiyi İrəvanlda dünən verdiyi bəyanatlar da rəsmi Parisin yürütdüyü siyasətin konturlarını dəqiq bəlirləməyə imkan verir.

"Fransa Ermənistanın baş naziri Nikol Paşinyanın seçdiyi sülh yolunu tam dəstəkləyir. Ermənistanla Azərbaycan arasında yekun sülh müqaviləsinin irmzalanması məqsədilə Nikol Paşinyanla çox yaxşı görüş baş tutdu. Fransa Ermənistana tam dəstək verir", - K.Kolonna bəyan edib.

Təbii ki, İrəvanda olarkən madam Kolonna "Laçın yolunda Azərbaycanı inşa etdiyi sərhəd nəzarət-buraxılış məntəqəsi dərhal götürülməli, sərbəst və maneəsiz hərəkət təmin olunmalıdır" tipli bəyanatlar da verib.

Fransanın Azərbaycana ünvanladığı bəyanatların tam əksəriyyətin ittihamlar və suçlamalardan ibarət olduğunu xatırladaraq qeyd edək ki, ölkəmiz öz ərazisində istədiyi zaman istədiyi məkanda istədiyi addımı atmaqda tam azaddır.

Həkəri çayı üzərindəki sərhəd nəzarət-buraxılış məntəqəsi (SBNM) da Azərbaycan ərazisindədir. Sərhədçilərimiz Azərbaycan bayrağının altında xalqımızın təhlükəsizliyini və dövlətimizin ərazi bütövlüyünü təmin edirlər.

Belə olduğuna görə, rəsmi Bakı qərarlarını heç bir dövlət və ya beynəlxalq təşkilatla razılaşdırmayıb, həmin sahədə niyyəti də yoxdur.

Katrin Kolonna və onun rəhbəri, Fransanın dövlət başçısı Emmanuel Makronun yürütdüyü siyasət diplomatik sahədə böyük uğursuzluqlarla qarşılaşır. Fransızların müdrik "iki dovşan dalınca qaçan tazı şikarsız qalar" deyimini unudan Makron administrasiyası eyni vaxtda həm Çin, həm Cənubi Qafqaz istiqamətində fəal strategiyanı reallaşdırmaq fikrinə düşsə də, şər iki trekdə niyyətləri puç olub.

Xatırladaq ki, Pekinə rəsmi səfəri əsnasında Çin lideri Si Szinpinlə 6 saatlıq danışıqlar aparmış Emmanuel Makron sonradan "Ukrayna müharibəsini dayandırmaq və sülhə nail olmaqla bağlı məxfi planımız var" idiomasını mediaya sızdırmışdı.

Makron administrasiyasındakı "etibarlı mənbələr"in dediklərinə görə, sən demə, Fransanın dövlət başçısı "Çinlə əldə edilmiş razılaşmalar əsasında" artıq bu yay Rusiya ilə Ukraynanı danışıqlar masası arxasına oturtmaq niyyətindədir.

"Emmanuel Makron xarici siyasət məsələləri üzrə müşaviri Emmanuel Bonneyə Çin XİN-nin sabiq başçısı Van İ ilə birlikdə Kiyev və Moskva arasında gələcək sülh danışıqlarına zəmin hazırlamağı tapşırıb", - Yelisey Sarayındakı "etibarlı mənbələr" vurğulayıblar.

Bu açıqlamalar yayılandan sonra rəsmi Pekinn reaksiyası paradoksal oldu: çinlilər təəccüblə və çox konkret şəkildə bəyan etdilər ki, Makronla belə razılaşmalar əldə olunmayıb, Pekin Fransanın təkliflərinə razılıq verməyib və s. Daha sonra isə Avropa İttifaqı, ABŞ və Ukrayna Makronun bəyanatlarına təəccüblənməyə başladılar.

Emmanuel Makronun Çin istiqamətində tam fiaskoya uğramasını onun "Səmaaltı imperiya"nın lideri Si Szinpinlə keçirdiyi birgə mətbuat konfransında da görmək olardı.

Həmin konfransda Si ilə müqayisədə iki dəfə artıq və uzun danışan Makron hətta bir ara birbaşa Çin liderinə müraciət edərək Ukrayna ilə bağlı "genişmiqyaslı strateji təşəbbüs"dən danışmağa başladı. Lakin Si Szinpin bu çıxışa həvəssiz qulaq asdı, qıcıqlandığını gizlətmədi, hətta bir neçə dəfə səbirsizcəsinə köks ötürdü.

Daha bir nüansı xatırladaq: həmin mətbuat konfransında Makron bilavasitə Siyə müraciət edib danışdısa, Çin lideri nitqini kağızdan oxudu və Makron tərəfə bir dəfə də olsun, dönüb baxmadı. Fransa dövlət başçısının Ukrayna ilə bağlı təklifləri Qərbdə çox ciddi narahatlıq və hiddət doğurub.

Məsələn, Britaniya Mühafizəkarlar Partiyasının sabiq sədri Yen Dunkan Smit "Emmanuel Makron otluqda gizlənmiş ilan kimidir: kimsəni, xüsusilə də ukraynalıları ona qətiyyən inanmamağa çağırıram" deyib.

Rəsmi Kiyev Makronun təkliflərini "qəbuledilməz dərəcədə pis təşəbbüs" kimi dəyərləndirib. Çin və Ukrayna istiqamətlərində uğur əldə etmək cəhdləri uğursuzluqla bitən Emmanuel Makronun diplomatik kulbitlərinə və ekvilibristikasına əsla təəccüblənmirik.

Fransanın XİN başçısı Katrin Kolonna Bakıda olduğu bir gün ərzində normal və adekvat diplomat görüntüsü yaratmağa çalışmışdı. "Fransa Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarını beynəlxalq hüquqa uyğun olaraq dəstəkləyir", - Kolonna həmin gün belə tvit yazmışdı.

Daha sonra isə o, bəyan etmişdi: "Azərbaycanın təklif etdiyi sülh sazişi layihəsini Fransa alqışlayır. Azərbaycanla Ermənistan bir-birlərinin ərazi bütövlüklərini tanımalıdır. Danışıqlar dayanıqlı sülhə aparan yeganə yoldur".

İrəvana yollanandan sonra isə Katrin Kolonna əsl mahiyyətini və simasını göstərdi. Onun İrəvanda səsləndirdiyi bəyanatlara nəzər salaq: "Laçın dəhlizi ilə sərbəst hərəkətə maneələrin yaradılması yolverilməzdir", "Azərbaycanın hərəkətləri sülh danışıqlarının davamına maneələr yaradır" və s.





Fransanın xarici siyasəti indi tam deqradasiya və tənəzzüldə olduğundan Emmanuel Makron ölkə daxilində fasiləsiz azalaq populyarlıq reytinqini az da olsa bərpa etmək, siyasi rəqiblərinin elektroal bazasının daha da güclənməsinə imkan verməmək üçün ölkədəki təqribən 284,3 min nəfərlik erməni seçicini öz tərəfinə çəkməyə çalışır.

Parisin ifrat ermənipərəst siyasətinin və Ermənistana "himayəlik" etməsinin əsas səbəbi budur.

Digər səbəb isə Cənubi Qafqazda möhkəmlənmək cəhdidir və bu, primitiv taktikadır ki, Katrin Kolonna məzkur bəsit gedişlərini İrəvanda nümayiş etdirir, ironiya yaradan bəyanatlar verir. Belə bəyanatlara qətiyyən reaksiya və təəccüblənmirik. Təəccüblü olan Katrin Kolonnanın Bakıdakı davranışı və açıqlamaları idi. Axı belə rasional, adekvat açıqlamalar Yelisey Sarayına xas məqamlar deyildi. Həmin açıqlamalar isə Azərbaycanın xarici siyasətinə əsla təsir etməyəcək.

Emmanuel Makron isə tamaşaçıların sadəcə, şounun nə ilə bitəcəyini gözlədiyi sirk arenasında klounadasını davam etdirə bilər. O, Azərbaycanın siyasətini anlamır. Halbuki hər şey çox sadədir. Bunun adı müstəqillikdir, suverenlikdir və inkişafa istiqamətlənməkdir.

***Elçin Alıoğlu***

# Bariz humanizm: əfv, amnistiya, bağışlamaq

## Bağışlamaq bütün cəmiyyətlərdə və bütün dinlərdə böyüklük kimi qəbul edilir



Bağışlamaq bütün dövrlərdə və bütün cəmiyyətlərdə böyüklük hesab edilir, bağışlayan müdrik, bağışlanan səhvindən dərs alan kimi xarakterizə edilir. Azad cəmiyyətlərdə günahın cəzası da olur, cəzasından nəticə çıxaranların əfvi də. Günahkarların bağışlanması məsuliyyətli işdir, bu məsuliyyəti öz üzərinə götürəcək insanlar da azdır.

Bir müddət əvvəl Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü Əlimməmməd Nuriyev bildirmişdi ki, 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi münasibətilə növbəti əfv prosesinin həyata keçiriləcəyi gözlənilir. Bu səbəblə məhkumlar, onların ailə üzvləri, vəkilləri, eyni zamanda, QHT nümayəndələri, deputatlar tərəfindən müraciətlər də daxil olub.

Qeyd edək ki, I Vitse-Prezident Mehriban Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktı qəbul edilib. Ümumilikdə 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı təxminən 135 min şəxsə tətbiq edilib, 32 mindən çox məhkum cəzaçəkmə müəssisələrindən azad olunub. O cümlədən, Azərbaycan Prezidentinin təşəbbüsü əsasında Milli Məclis tərəfindən qəbul edilmiş "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 2021-ci il 5 noyabr tarixli qərar 17 min 267 şəxsə şamil olunub.

Bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiyadır. Amnistiyanın tətbiqi nəticəsində şəxslər ayrı-ayrı cəzalardan, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediliblər, bəzilərinin isə cəza müddəti azaldılıb.



### Əfv nədir, kimlərə şamil edilir?

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 82-ci maddəsi "Əfvetmə" adlanır. Əfv fərmanı ilə məhkum cəzasının qalan hissəsini çəkməkdən azad edilə bilər, məhkuma təyin olunmuş cəzanın müddəti azaldıla bilər, məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər.

Əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə həmçinin ömürlük azadlıqdan məhkum olunmuş şəxsin cəzası 25 ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər, habelə cəzanı çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Bəzən amnistiya və əfvetmə ilə bəraətalma bir-birinə qarışdırılır. Bəraət yalnız məhkəmənin qərarı ilə verilə bilər. Şəxsin qanunu pozması barədə sübutlar yoxdursa, istintaq tədbirləri zamanı onun cinayət işləmədiyi üzə çıxarsa, həmin şəxs bəraət ala bilər. Amnistiya və əfvetmə isə cinayət törədən şəxslər barəsində tətbiq edilir.

Amnistiya və əfvetmə birdəfəlik tətbiqetmə üçün nəzərdə tutulsa da, əfvetmə yalnız qanuni qüvvəyə minmiş hökm əsasında məhkum edilmiş şəxslərə münasibətdə, amnistiya aktı isə cinayət prosesinin istənilən mərhələsində tətbiq edilə bilər, yəni şəxsi məsuliyyətdən və cəzadan azad edə bilər.

### Amnistiya və əfvetmənin fərqi nədir?

Cinayət Məcəlləsinin 81-ci maddəsi isə Amnistiya adlanır. 81.1. bəndində deyilir ki, Amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Əfvetmə isə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.




Amnistiya həyatının ən böyük səhvini etmiş, bəlkə də istəmədən, bilmədən, affekt vəziyyətində cinayət törətmiş insanlara bir daha imkan vermək deməkdir, bu onların azad həyata qayıtması və səhvlərindən nəticə çıxararaq yaxşı insan olmaları üçün çalışmaları üçün yaradılmış şansdır.

Amnistiya cəzanın yüngülləşdirilməsi, yaxud ləğv edilməsi deməkdir. Amnistiya elə bir normativ-hüquq aktıdır ki, o, hüquq pozuntuları törətmiş şəxslərin fərdi olaraq müəyyənləşdirilməmiş dairəsi barəsində qəbul edilir və həmin şəxsləri, onlara qarşı tətbiq olunmuş və ya oluna biləcək sanksiyalardan azad edir, yaxud yüngülləşdirir. Amnistiyanın tətbiqi dairəsi heç də cinayət qanunvericiliyi ilə məhdudlaşmır, bir sıra ölkələrdə tez-tez vergi amnistiyası aktları da qəbul edilir.

### Tanrı bağışlayanları sevir

Təcrübə göstərir ki, həbsxanalar insanları tərbiyələndirmək funksiyasının öhdəsindən gələ bilmir. Əksinə, onları daha da aqressivləşdirir, psixologiyalarında cəmiyyətə qarşı inamsızlıq və qəzəb formalaşdırır. Həbsxanalar insanların fiziki və mənəvi-psixoloji sağlamlıqlarına zərbə vurur.





Təsadüfən, bilmədən, istəmədən, şüurlu surətdə olmadan yüngül cinayət törətmiş və bundan səmimi-qəlbdən peşman olan on minlərlə məhbus var. Onları cəmiyyətə qazandırmaq lazımdır. Onların həyatda son ümidlərini də məhv etmək olmaz, çünki çoxu, törətdiyi cinayətin cəzasını elə həbsxana həyatının ilk ilində almış olur - çəkdiyi mənəvi əzab ilə.

Quru münasibətlərin hökm sürdüyü müasir cəmiyyətlərdə amnistiya, əfv kimi təşəbbüslər bir qədər təəccüblü də görünə bilər. İndi düşüncələr birmənalı olaraq "günahkar cəzasını çəkməlidir" qənaətindədir. Amma hər bir sivil cəmiyyətdə insan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xidmət edən bağışlama aktları olduqca yüksək dəyərləndirilir. Bağışlamaq bütün cəmiyyətlərdə və bütün dinlərdə böyüklük kimi xarakterizə edilir. "Tanrı da bağışlayanları sevir" ifadəsi boşuna deyilməyib.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
2 may
2023-cü il

# Bakcell "Formula 1"in sürət liderlərini təqdim edir!

Formula 1 yarışlarının sürət liderləri ilə yanaşı Bakcell də Azərbaycanın Qran Prisinin sürət rəmzlərindən birinə çevrilib. "Formula 1"in son günündə gərgin mübarizənin şahidi olan azarkeşlər Bakcell stendində müxtəlif yarışlara qatılıblar.

Vətən mühabəsininin qəhrəman veteranları "Bakcell" tribunasının xüsusi qonağı qismində dəvət olunub. Qazilərimiz eyni zamanda Bakcell stendində şəbəkəni sınaqdan keçirib, müxtəlif oyunlarda iştirak ediblər. "Formula 1" üzrə Azərbaycan Qran Prisi ərzində sürətlə əyləncəni bir araya gətirən "Bakcell" stendi yarış boyu sürət həvəskarlarının böyük marağına səbəb olub.






# Uşağı döyməklə tərbiyə etmək nə dərəcədə düzgündür?



Psixoloq ətraflı məlumat verdi

“Valideynlər uşaqlarını döyməklə onlarda travma yaşada bilərlər. Ortayaşlı bir pasiyentim danışırdı ki, uşaq vaxtı məktəbdə 2 alanda anam məni oxlovla o qədər döymüşdü ki, indi maşınıma 2 rəqəminin istifadə olunduğu nömrələr vurmaq istəyirəm, amma sanki anam görsə yenə məni döyəcək. Valideyni tərəfindən şiddətə məruz qalan azyaşlılar isə fikirləşir ki, indi gücü çatır mənə, bəs mən böyüyəndə də bunu edə biləcəkmi?! Yəni, bu o deməkdir ki, mənim gücüm çatanda mən də onu vuracam”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, biz bu iki nəsil arasında ümumi bir çıxarış əldə etməliyik: "Təbiidir ki, 7 yaşa yaxın uşağın fiziologiya və anatomiyasında təlim-tərbiyə prosesinin sürətlənməsinin əsasında onda baş verən dəyişikliklərə şəxsiyyət kimi yanaşmağımız dayanır.



Uşağın beyni hələ o yaşlarda yeni-yeni inkişaf etməyə başlayır. Biz o dövrdə uşağı hər hərəkətinə görə döysək, təhqir etsək, mənfi təsirlərini görəcəyik. Bunun da qarşısını almaq üçün biz ilk öncə uşaqla yox, valideynlə işləməliyik. Əlbəttə ki, tərbiyə prosesində yüngül cəza növləri var. Amma hər gün döyülmək bir uşağın gələcəkdə cinayətkar, hətta qatı qatil olmasına səbəb ola bilər. Çünki həmin insan fikirləşir ki, əgər doğmam məni bu cür döyürdüsə, mən də başqasını döyə bilərəm. Get-gedə həmin insanda qatil düşüncəsi formalaşmağa başlayır. Həmin adamlarda amansız düşüncələri də valideynlər yetişdirir. Ona görə də hər bir valideyn övladında baş verəcək hadisədə öz səhvini görə bilsin".

***Ləman Əlizadə***

## Dərman vasitəsi ilə tibbi abort etməyə icazə veriləcək

Yaponiyada ilk dəfə abort etmək üçün istifadə olunan həbin istifadəsinə icazə verilib. SİA xəbər xarici mətbuata istinadən verir ki, həb İngiltərənin "Linepharma" dərman şirkəti tərəfindən istehsal olunur. Hamiləliyin erkən dayandırılmasına imkan verən tibbi abort, ilk dəfə Yaponiyada mövcud olacaq.



***Banuçiçək Hüseynli***

## ŞOK: İki gündə yol qəzalarında 16 nəfər ölüb!

Yol qəzaları can almağda davam edir. Son illər getdikcə kəskin hal alan və nəticədə hər il yüzlərlə insanın həyatına son qoyan yol qəzaları bu gün o qədər aktual mövzuya çevrilib ki, cəmiyyətdə bununla bağlı həyəcan təbili çalmağın vaxtı çoxdan çatıb. Aprelin 29-da və 30-da respublikanın avtomobil yollarında ölümlə nəticələnən 11 yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə SİA-ya DİN-dən bildirilib. Nəticədə 16 nəfər ölüb, 12 nəfər isə xəsarət alıb.



# Xarici turistlərin regionlara marağı niyə azdır?



QURUM RƏSMİSİ AÇIQLADI

"Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycan otellərində gecələyən əcnəbilərin 80%-i məhz Bakı şəhərinin payına düşür. Qalan 20% isə digər regionlar arasında bölünür. Əlbəttə ki, bu göstəricilər heç də təəccüblü deyil. Çünki Azərbaycanda 700-ə yaxın otelin üçdə biri Bakı və ona yaxın ərazilərdə yerləşir. Nəzərə alsaq ki, Azərbaycanda olan bir neçə beynəlxalq hava limanlarından yalnız Bakıda yerləşən Heydər Əliyev adına Beynəlxalq Hava limanı əlverişli işləyir. Ümumi əməliyyatların 90%-dən çoxu Bakı Beynəlxalq Hava limanı üzərindən nəzərdən keçirilir". Bu sözləri SİA-ya açıqlamasında Qlobal Sağlamlıq Turizm Şurasının baş katibi Ceyhun Aşurov deyib.

Onun sözlərinə görə, quru sərhədlər bağlı olduğuna görə hava yolu ilə ölkəmizə gələn əcnəbilər Heydər Əliyev adına Beynəlxalq Hava Limanından daxil olurlar: "Həmin turistlər birbaşa regionlara üz tutmurlar, ilk günlərini məhz Bakıda gecələməli olurlar. Təbii ki, regionlara səfərlər çox olsa da, otellərdə gecələmə halları bir o qədər çox deyil. Bunun bir çox səbəbi var. Tutaq ki, Bakıda qalan əcnəbi heyət ola bilər ki, yaxın regionlara sadəcə ekskursiya şəklində səfər edir. Bu halda səhər regionlara gedir, axşam isə yenidən Bakıya qayıdırlar. Amma bu o demək deyil ki, ölkəmizə gələn turistlər regionlarımıza səfər etmirlər. Lakin onların az bir hissəsi həmin regionda qalmalı olurlar".

Qurum rəsmisi sözlərinə davam edərək bildirib ki, Azərbaycanda pandemiya dövründən başlayaraq daxili turizmdə aktivlik müşahidə olunur: "Regiondakı otellər kifayət qədər dolu olur və bununla əlaqədar olaraq xüsusilə tətil günlərində qiymətlər yüksək olur. Yəni, müqayisə etsək Bakıdakı otellərdə qiymətlər regiondakılara nisbətən qat-qat aşağı olur. Qiymət, lokasiya olaraq turistlər daha çox paytaxtda qalmağa üstünlük verirlər. Həmçinin, Bakıda kifayət qədər restoranlar, əyləncə mərkəzləri, tarixi abidələr var ki, bu da əcnəbilərin maraqlarına uyğun olaraq öz istirahətlərini qurmasına imkan yaradır. Xüsusilə regionlarda 2 və 3 ulduzlu otellərin açılmasına ehtiyac var. Bu, həm yerli, həm də xarici turistlər üçün əlverişli olar. Eyni zamanda, regionlarda yerləşən hava limanlarının işi də səmərəli təşkil olunsa, turistlərin həmin bölgələrdə gecələmələrinə şərait yarana bilər".

***Ləman***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**